Elektron Hökumət Portalı

Rabitə və Yüksək Texnologiyalar Nazirliyi

# ELEKTRON HÖKUMƏT BÜLLETENİ

NO: 37 • OKTYABR 2016

Vətəndaş və dövlət qurumları arasında yeni münasibətlər



www.e-gov.az

vaxta qənaət

rahat

şəffaf

əlverişli

www.e-gov.az

4 s.

**“Elektron hökumət” layihəsi birbaşa ölkə başçısının diqqət mərkəzində olan prioritet sahələrdən biridir**

Elektron xidmətlərin Azərbaycanın regionlarında istifadəsinin genişləndirilməsinə, sektorun sağlamlaşdırılmasına ehtiyac var.

12 s.

**“Elektron ipoteka” sistemi “Elektron hökumət” portalına inteqrasiya ediləcək**

Prezident İlham Əliyev bu barədə müvafiq Fərman imzalayıb.

“Elektron hökumət” portalının operatoru
RABİTƏ VƏ YÜKSƏK TEXNOLOGİYALAR NAZİRLİYİ

# "Elektron hökumət" quruculuğu üzrə hüquqi baza möhkəmləndirilir




2016-cı ilin 9 ayı ərzində "Elektron hökumət" infrastrukturunun inkişafına yönəlik aşağıdakı islahatlar aparılıb:

## 5 Fevral 2016

“Ünvanlı dövlət sosial yardımın alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 37 nömrəli qərarı.

Həmin Qaydaların 2.3 bəndinə əsasən, ünvanlı sosial yardımla bağlı müraciət “Elektron hökumət” portalı vasitəsilə həyata keçirilir.

## 4 Mart 2016

Gömrük sistemində islahatların davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.

Sərəncamın müvafiq bəndlərində elektron gömrük xidmətlərinin daha da genişləndirilməsi məqsədi ilə bütün bəyannamələrin gömrük orqanlarında elektron formada qəbulu, həmçinin, elektron xidmətlərin göstərilməsi ilə əlaqədar olaraq dövlət orqanları ilə qarşılıqlı elektron informasiya mübadiləsinin həyata keçirilməsi məsələləri öz əksini tapır.

## 30 Mart 2016

“Elektron hökumət” portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı”nın və “İnformasiya sistemlərinin və ehtiyatlarının, elektron xidmətlərin “Elektron hökumət” portalına qoşulması üçün Texniki Tələblər”in təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 1 may tarixli 118 nömrəli qərarında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 139 nömrəli Qərarı.

## 30 Mart 2016

“Tibbi-sosial ekspertiza müayinəsinə göndərişlərin verilməsi Qaydaları”nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 140 nömrəli Qərarı.

Həmin Qaydaların 2.7 bəndinə əsasən, göndərişlərin Reyestrə daxil olunması “Elektron hökumət” portalı üzərindən aparılacaq.

## 11 Aprel 2016

“Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2016-cı il 4 mart tarixli 158-VQD nömrəli Qanununun tətbiqi və “Dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması Qaydası”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı təsdiq olunub. Fərmanın 3.1.2-ci yarımbəndinə uyğun olaraq Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi satın alınması nəzərdə tutulan ərzaq məhsulları, həmin məhsulların qiymətləri və satınalma şərtləri (o cümlədən, satınalma dövriliyi) barədə elanı Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi formada hər il avqustun 1-dək elektron portalda yerləşdirir.

## 20 Aprel 2016

Prezident İlham Əliyev "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının 2016-cı il 15 mart tarixli 176-VQ nömrəli Qanununun tətbiqi barədə Fərman imzalayıb. Həmin Fərmanın 2.3.4-cü yarımbəndinə uyğun olaraq Qanunun 2 nömrəli əlavəsinin 3-cü və 4-cü maddələrində nəzərdə tutulmuş lisenziya tələb olunan fəaliyyət növləri üzrə Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən həyata keçirilir.

## 21 Aprel 2016

Azərbaycan Respublikasının Prezidenti Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə Macarıstanın Xarici İşlər və Ticarət Nazirliyi arasında yüksək texnologiyalar ekosistemi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumunun təsdiq edilməsi barədə Fərman imzalayıb.

## 22 İyun 2016

Prezident İlham Əliyev "Azərbaycan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyətinin (ASC) vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası haqqında Fərman imzalayıb. Fərmanın 4-cü bəndində qeyd edilir ki, ASC-nin vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi məqsədi ilə "Elektron hökumət" portalında "Elektron ipoteka" sistemi yaradılsın və 2017-ci il yanvarın 1-dən tətbiq edilsin.

## 23 İyun 2016

Azərbaycan Respublikası Prezidenti dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılmasına nəzarətin həyata keçirilməsi Qaydasının təsdiq edilməsi haqqında Fərman imzalayıb. Fərmanın 2.2-ci yarımbəndi yerli icra hakimiyyəti orqanlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılmasına nəzarət bu Qaydanın 2.1-ci bəndində göstərilənlərlə yanaşı, vətəndaşların müraciətləri üzrə vahid elektron informasiya sistemindən istifadə qaydalarına əməl olunmasına və həmin sistemdəki informasiyanın təhlükəsizliyinin təmin edilməsinə dair məlumatları əhatə edir.

## 24 İyun 2016

Azərbaycan Respublikası Prezidenti 2013-cü il 23 oktyabr tarixli 3 nömrəli Fərman ilə təsdiq edilmiş "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə Əsasnamə"də dəyişiklik edilməsi barədə Fərman imzalayıb. Fərmanın 6.5-ci yarımbəndində qeyd edilir ki, 15 yaşı tamam olmamış vətəndaşa verilən şəxsiyyət vəsiqəsinin elektron daşıyıcısına vətəndaşın ailə vəziyyəti, boyu, hərbi vəzifəsi, vətəndaşın gücləndirilmiş elektron imzası ilə əlaqədar sertifikatlar, elektron imza yaratma və elektron imzanı yoxlama məlumatları daxil edilmir.

## 20 Sentyabr 2016

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 2 aprel tarixli 359 nömrəli Sərəncamının 3.1-ci bəndinin icrasını təmin etmək məqsədi ilə, "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016–2020-ci illər üçün Dövlət Proqramı" Azərbaycan Respublikası Prezidentinin 20 sentyabr 2016-cı il tarixli Sərəncamı ilə təsdiq edildi.

Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilmiş Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının əlaqələndirilməsi Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə həvalə edilib.

# “Elektron hökumət” layihəsi birbaşa ölkə başçısının diqqət mərkəzində olan prioritet sahələrdən biridir

Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə bu ilin iyul ayında **TREND**-ə müsahibə verib:

## Elektron xidmətlərin Azərbaycanın regionlarında istifadəsinin genişləndirilməsinə, sektorun sağlamlaşdırılmasına ehtiyac var

**- Azərbaycanın İKT sektorunun inkişafı nə ilə əlamətdar olub? Azərbaycanın ixrac yönümlü qeyri-neft iqtisadiyyatına keçidini nəzərə alsaq, sahə qarşısında yaxın perspektivdə hansı vəzifələr dayanır?**

- Azərbaycan regionun ən inkişaf etmiş ölkəsidir və iqtisadiyyatın inkişafı bütün sahələri əhatə edir. İnformasiya-kommunikasiya texnologiyaları sektorunun davamlı inkişafı da Azərbaycan Prezidenti İlham Əliyevin apardığı iqtisadi-siyasi islahatların ayrılmaz tərkib hissəsidir.

Bildiyiniz kimi, ökəmizdə qeyri-neft sektorunun hərtərəfli inkişafına yönələn dövlət proqramları həyata keçirilir. Qeyd olunan proqramlar İKT sahəsinin keyfiyyətcə növbəti mərhələyə keçidini zəruri edir. Yəni, bu artıq günün tələbidir.

Ölkəmiz Cənubi Qafqazda informasiya cəmiyyətinə keçid strategiyasını qəbul etmiş birinci və yeganə dövlətdir. Ümumiyyətlə isə Azərbaycan bu cür strategiyanı qəbul edən azsaylı ölkələrdən biridir. Son illər Azərbaycanın İKT sahəsində əldə etdiyi ən böyük nailiyyətlərdən danışarkən, ilk növbədə regionda yeganə kosmos sənayesinə sahib ölkə olmağımızı qeyd etmək lazımdır. Eyni zamanda “Elektron hökumət” sistemi inkişaf etdirilib, İKT sahəsində nailiyyətə təkan verən “Elektron imza”nın tətbiqi genişləndirilib, mobil telefon şəbəkə sistemində ən son texnologiya olan "4G" xidmətinin tətbiqinə başlanılıb və bu da ölkənin istənilən nöqtəsində yüksəksürətli internetə çıxış imkanı yaradır. Həmçinin, ölkə ərazisi rəqəmsal televiziya yayımı ilə əhatə olunub və s.

Kommunikasiya və yüksək texnologiyaları ən dinamik inkişaf edən sektor hesab etmək olar. Təbii ki, biz ən azı dünyada gedən tendensiyanı təqib etməliyik ki, texnoloji yeniliklərdən geri qalmayaq. Bunun üçün hazırda ciddi layihələr üzərində işlər gedir.

Əlbəttə, İKT ölkəmizdə davamlı inkişaf və intellektual potensialın gücləndirilməsi baxımından vacib sahədir. Eyni zamanda cəmiyyətdə şəffaflığın inkişaf etdirilməsi üçün önəmlidir. Bu istiqamətdə bizim üzərimizdə konkret vəzifələr var.

Bu gün sahə üzrə həyata keçirilən işlər əhalinin istifadəsinə verilən elektron xidmətlərin sayının və keyfiyyətinin artırılmasına yönəlib. Elektronlaşma və xidmətlərin vətəndaşlar üçün maksimum əlçatan olması qarşımızda duran əsas məsələlərdəndir.

Onu da vurğulayım ki, “Elektron hökumət” layihəsi birbaşa ölkə başçısının diqqət mərkəzində olan prioritet sahələrdən biridir. Bu layihənin hədəfi vətəndaşların dövlət qurumlarından keyfiyyətli “online” xidmət almasını təmin etmək, vətəndaş-hökumət, vətəndaş-məmur münasibətlərini daha sağlam və müasir formata gətirməkdir.

Sevindirici haldır ki, dövlət qurumları “Elektron hökumət” portalına daha çox xidmətlərini inteqrasiya etməkdə maraqlıdırlar. Deməli, vətəndaşlar get-gedə daha çox xidməti “online” əldə edə biləcək.

**- Azərbaycanda internetin əhatə dairəsinin indiki səviyyəsi Sizi qane edirmi və bu sahədə hansı işlər aparılır?**

- Hazırda bizi düşündürən əsas məsələ internetin əhatə dairəsi ilə yanaşı, internetin keyfiyyətinin və sürətinin yüksəldilməsidir. Azərbaycan əhalisinin 75 faizindən çoxunun internetə çıxışı var və bu, hazırda yaxşı göstəricidir. Amma geniş istifadəçi kütləsi lazımi keyfiyyətdə internet xidməti ala bilirmi? Təəssüf ki, bu suala birmənalı cavab vermək olmur. Apardığımız monitorinq, texniki audit və istifadəçilər arasında keçirdiyimiz sorğuların təhlili göstərir ki, hələ görüləsi işlər çoxdur. Əslində, bu, fasiləsiz bir prosesdir. Qeyd olunan sahədə inkişaf o qədər sürətlə gedir ki, dünənki texnoloji inkişaf bu gün üçün köhnə sayılır.

Hazırda ölkənin bütün yaşayış məntəqələrində yüksəksürətli fiber-optik kabel şəbəkəsinin qurulması layihəsi üzərində iş gedir. Bu o deməkdir ki, genişzolaqlı şəbəkə üzərindən keyfiyyətli internet və telekommunikasiya xidmətləri göstəriləcək.

Layihənin mahiyyəti hər bir mənzili 100 meqabit saniyə internetlə, IP TV və telefon xidməti ilə təmin etməkdən ibarətdir. Yəni, yeni infrastruktur 3 xidmətin eyni vaxtda yüksək keyfiyyətdə aparılmasına imkan verəcək. Bakı ərazisində artıq layihənin icrasına start verilib.

Təbii ki, qarşıdakı əsas vəzifələrdən biri də yaxşı infrastruktur yaratmaqla sağlam rəqabət mühiti formalaşdırmaqdır. Elektron xidmətlərin Azərbaycanın regionlarında istifadəsinin genişləndirilməsinə, sektorun sağlamlaşdırılmasına ehtiyac var. Provayderlərin səmərəli fəaliyyəti üçün münbit şəraitin yaradılması bu layihənin əsas məqsədlərindəndir. İnfrastruktur müasir standartlara cavab verməlidir ki, xidmətin də keyfiyyəti yaxşı olsun.

**- Azərbaycan digər dövlətlərin təcrübəsindən istifadə edərək ölkə vətəndaşlarının sosial şəbəkələrdə olan fərdi məlumatlarını saxlamaq üçün respublika ərazisinə keçirməyi planlaşdırırmı?**

- “Google”, “Facebook”, “Twitter” kimi korporasiyaların əsas fəaliyyət prinsiplərindən biri də istifadəçi məlumatlarının mühafizəsini təmin etməkdir. Bunun üçün tələblərə cavab verən məlumat bazasının mövcud olması əsas şərtdir.

Bu gün əsas məsələlərdən biri də respublikamızı regionun tranzit informasiya mərkəzinə çevirməkdir. Bu istiqamətdə Regional Data Mərkəzin qurulması bizi sözügedən məqsədin reallaşmasına doğru daha bir addım yaxınlaşdırır.

Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən qurulan Regional Data Mərkəz respublikamızda və bütövlükdə Qafqaz regionunda ilk sertifikatlaşdırılmış mərkəzdir. Artıq test sınaqları uğurla həyata keçirilib və bu ilin sonunadək istifadəyə verilməsi nəzərdə tutulur.

Data Mərkəzin resurslarından telefon operatorları, maliyyə təşkilatları, kiçik və orta sahibkarlıq subyektləri, eləcə də müxtəlif təşkilatlar informasiyanın qorunması və saxlanması üçün istifadə edə bilərlər. Bu məlumatların emalı prosesində hər hansı bir məlumatın sızmamasına, ümumilikdə kənar müdaxilələrdən mühafizəyə zəmanət verilir. Eyni zamanda Data Mərkəz beynəlxalq kommunikasiyada alternativ trafik daşıyıcısı funksiyasını da yerinə yetirəcək. Bunun da strateji baxımdan böyük əhəmiyyəti var.

Dünya üzrə İT xidməti göstərən iri şirkətlər bu Data Mərkəzdə öz infrastrukturunu yarada biləcəklər.

**- Poçt sahəsində kreditlərin verilməsi və depozitlərin qəbulu da daxil olmaqla hansı yeni islahatlar gözlənilir?**

- Telekommunikasiya sektorunda əhalinin ən çox müraciət etdiyi ünvanlardan biri də poçtdur. Bu xidmət sahəsinin daim təkmilləşdirilməsinə ehtiyac var. Təbii ki, “Azərpoçt” MMC-nin inkişafından danışarkən burada islahatların aparılması və yeni xidmətlərin yaradılması günün tələbidir. İnanırıq ki, Azərbaycanın müasir standartlarla ayaqlaşan milli poçt xidmətini qura biləcəyik.

Bildiyiniz kimi, milli poçt ənənəvi xidmətlərlə yanaşı, maliyyə xidmətləri də göstərir. Vətəndaşlarımız həm ölkədaxili, həm də beynəlxalq pulköçürmələri sisteminin xidmətlərindən rahatlıqla istifadə edirlər. Ümumilikdə bütün maliyyə xidmətlərində təkmilləşmələr aparılacaq. Günün tələbinə uyğun olaraq elektron ödənişlər üstünlük təşkil edəcək.

Bununla yanaşı, hazırda sürətli (ekspress) poçt xidmətlərinin əhatə dairəsi genişləndirilir. Hazırda mövcud olan ekspress poçt xidmətini beynəlxalq standartlara uyğunlaşdırmağa çalışırıq. Digər sahələrdə olduğu kimi, Azərbaycanın poçt sistemini də beynəlxalq tranzit qovşağa çevirməyi nəzərdə tuturuq.

“Azərpoçt” MMC-nin ölkə üzrə geniş filial şəbəkəsi var və ölkə daxilində 1600 şöbəsi fəaliyyət göstərir. Bütün ölkə ərazisini əhatə edən bu geniş şəbəkədən əhalinin daha çox faydalanması üçün yeni xidmətlərin, o cümlədən maliyyə xidmətlərinin tətbiqinə çalışırıq. Hələlik, “Azərpoçt”un 1000-dən çox şöbəsində Mərkəzi Bankın lisenziyası əsasında maliyyə xidmətləri göstərilir. Amma kredit verilməsi və əmanət qəbul edilməsi bu xidmətlərə daxil deyil. Poçtda kreditlərin verilməsi məsələsinə



yalnız maliyyə xidmətlərinin genişləndirilməsi çərçivəsində qanunvericilik bazası formalaşdırıldıqdan sonra baxıla bilər.

**- Nazirlik kabel-kanal qurğularının auditini aparıb. Müəyyən edilib ki, onların montajı tələblərə cavab vermir və həddindən artıq yüklənib. Bu o deməkdirmi ki, hər bir operator kabel-kanal qurğularında öz optikasını çəkə bilməz, onlara öz abonentlərinə xidmət göstərmək üçün vahid infrastruktur təklif ediləcək?**

- Kabel-kanal sistemi uzun illər normativə uyğun, düzgün istismar edilməyib. Qeyd edim ki, tərəfimizdən aparılan audit zamanı qeyri-qanuni çəkilişlərin həyata keçirilməsi ilə bağlı çoxsaylı faktlar aşkarlanıb. Bu nöqsanlar ona gətirib çıxarıb ki, hazırda infrastrukturun normal texniki istismarı mümkünsüz olub.

Artıq bu nöqsanların aradan qaldırılması üçün işlər görülür. Provayderlər ümumi istifadədə olan kabel-kanal sistemindən yararlanaraq özlərinin kabel infrastrukturlarını qurublar. Kabel-kanalların sayının artırılması və intensiv yerləşdirilməsi mövcud quyuların normadan artıq yüklənməsinə səbəb olur. Bu da öz növbəsində hər bir ünvana fiber-optik xəttin çəkilməsi kimi əhəmiyyətli layihənin həyata keçirilməsinə əngəl törədir. Ona görə də kabel-kanal sistemində başladığımız tədbirlər davam etdirilir.

İlkin mərhələdə Bakı ərazisində kabel-kanal infrastrukturu lazımi standarta gətiriləcək. Daha sonra isə hər bir ünvanadək optik kabel şəbəkəsi qurulacaq və telefon qovşaqlarında hazırda mövcud olan avadanlıqlar ən son nəsil qurğularla əvəz olunacaq.

Özəl şəbəkənin inkişafına dəstək məqsədilə provayderlərə 100 Mbit/s və 1 Gbit/s-lik alternativ portlar təklif olunur. Həyata keçirilən işlər nəticəsində müasir standartlara cavab verən, keyfiyyətli və davamlı rabitəni təmin edə biləcəyik.

**- Hazırda nazirlikdə bəzi islahatlar aparılır. Bu islahatlar nələri əhatə edir?**

- Nazirlikdə aparılan islahatlar ümumən ölkədəki çoxşaxəli islahatların tərkib hissəsidir və bu islahatlar ölkəmizin, eləcə də, rabitə və yüksək texnologiyalar sahəsinin inkişafına yönəlib.

Təbii ki, köklü islahatlar hərtərəfli yanaşma tələb edir. Biz infrastrukturda, texniki təchizatda, texnologiyada, insan resursları sahəsində islahatlar aparırıq. Eyni zamanda əməkdaşlarımızın sosial təminat məsələlərinə də həssaslıqla yanaşırıq. İşçilərin sosial rifahının yüksəldilməsi başlanan islahatların ayrılmaz tərkib hissəsidir.

Azərbaycanın telekommunikasiya sahəsində çalışan, böyük kollektivdə uzun illərin təcrübəsinə malik güclü mütəxəssislər var. Amma hər zaman müasir inkişaf tempini izləyə bilən, yeni yanaşması olan kadrlara da ehtiyac duyulur. Ona görə də işə daha peşəkar kadrlar cəlb edirik. Bununla yanaşı, əməkdaşların bilik və təcrübələrini artırmaq üçün treninqlər təşkil olunur, xarici mütəxəssislərlə əməkdaşlıq imkanları yaradılır. Beynəlxalq səviyyələrdə bir sıra nüfuzlu təşkilatlarla əməkdaşlığın genişləndirilməsi üçün işlər aparılır.

Onu da qeyd edim ki, rabitə və yüksək texnologiyalar sektorunda islahatlar bütün ölkə ərazisini əhatə edir. Doğrudur, hər yerdə eyni vaxtda nəticə əldə etmək mümkün deyil. Amma paytaxtla paralel bölgələrdə də yeni telekommunikasiya layihələri həyata keçirilir.

İslahatlar poçt, telekommunikasiya, eləcə də digər seqmentləri əhatə edir.

Məsələn, rayon telekommunikasiya qovşaqlarında göstərilən rabitə xidmətlərinin keyfiyyətinin yüksəldilməsi və istifadəçiyə yeni xidmətlərin təklifi üçün pilot layihələr hazırlanır. Layihələrin nəticəsində bölgələrdə yaşayan istifadəçilər yüksək keyfiyyətdə telefon, internet və IP TV xidməti alacaq.

Əlbəttə, qeyd olunan işlərin həyata keçirilməsinə müəyyən zaman lazımdır və yaxın gələcəkdə bu islahatların və onların konkret nəticələrinin şahidi olacağıq.

**- Vətəndaşlardan daxil olan müraciətlər daha çox hansı məsələləri əhatə edir və vətəndaşlarla iş necə qurulub?**

- Biz mütəmadi olaraq Bakıda və bölgələrdə vətəndaşlarla görüşürük, onların təklif, irad və şikayətləri ilə yerində tanış oluruq. Müraciətlərin əksəriyyəti telekommunikasiya, internet, poçt, işə qəbulla bağlı məsələlərə aid olur. Çalışırıq ki, müraciətlərin əksəriyyətini yerindəcə həll edək.

İKT sektoru xidmət sahələrini əhatə etdiyi üçün biz birbaşa vətəndaşlarla işləyirik və ona görə də hər bir müraciətə həssaslıqla yanaşılır. Hazırda həm nazirliyin, həm də tabeli qurumların "Qaynar xətt"ləri, poçt və elektron poçt, həmçinin sosial şəbəkələr vasitəsi ilə çoxsaylı müraciətlər qəbul olunur. Həmin müraciətlərin hər biri dəqiqliklə araşdırılır və qiymət verilir.

Amma bu məsələni təkmilləşdirməyə ehtiyac görürük. Hazırda vətəndaşların müraciətlərinin qəbulu və daha keyfiyyətli, operativ xidmət göstərmək məqsədilə müştəri xidmətləri mərkəzinin qurulması üzərində iş gedir. Geniş auditoriyası olan hər bir xidmət sahəsi üçün bu, çox önəmlidir. Çünki istifadəçinin məmnunluğu əsas məsələlərdəndir.

Aparılan islahatlar nəticəsində problem və nöqsanların aradan qaldırılması çox önəmlidir. Ona görə də vətəndaşlar üzləşdikləri problemi bildirməklə bizə kömək etmiş olurlar. Biz həmin məlumatları təhlil edir və sahələr üzrə mövcud olan vəziyyəti daha aydın görürük. Bu, növbəti addımların müəyyən olunmasında bizə kömək edir.

**- Sosial şəbəkələrdən istifadə edirsinizmi və sosial şəbəkələr vasitəsilə "sual-cavab" praktikasına necə baxırsınız?**

- Bəli, istifadə edirəm. Çünki bu gün sosial şəbəkələr ən aktiv ünsiyyət vasitəsinə çevrilib.

Sosial şəbəkələrdə nazirliklə bağlı məsələlər deyərdim ki, gündəlik izləyirəm. Bilirsiniz ki, nazirliyin sosial şəbəkələrdə səhifələri var. Həmin səhifələr eyni zamanda vətəndaşlarla bir ünsiyyət vasitəsidir. Nazirliyin "Qaynar xətt"inə edilən müraciətlər kimi, sosial şəbəkələr vasitəsi ilə bizə daxil olan informasiya, şikayət və müraciətlərdən mütəmadi məlumat alırıq. Və əslində sizin qeyd etdiyiniz kimi, sosial şəbəkələr vasitəsi ilə "sual-cavab" aparmaq işin xeyrinədir. Yəni, sosial şəbəkə vətəndaşla bilavasitə və operativ ünsiyyət baxımından əhəmiyyətlidir.

# Mobil cihazların qeydiyyatı ilə bağlı "157" çağrı mərkəzinə zəng edin

Mobil qurğularınızın IMEI kodlarının qeydiyyatı və itirilmiş telefonlarla bağlı yaranan bütün suallarınıza "157" çağrı mərkəzinə zəng etməklə cavab tapa bilərsiniz.

Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzi tərəfindən "Mobil cihazların qeydiyyat sistemi" üzrə daxil olan zənglərin optimallaşdırılması, xidmət keyfiyyətinin yüksəldilməsi məqsədi ilə daha əvvəl fəaliyyət göstərən "1677" nömrəli məlumat mərkəzi "157" çağrı mərkəzinə birləşdirilib.

Qeyd edək ki, bu nömrəyə zəng etməklə həftənin iş günləri saat 9:00-dan 18:00-a qədər məlumat almaq mümkündür.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarına əsasən, Məlumat Hesablama Mərkəzi tərəfindən yaradılan "Mobil cihazların qeydiyyat sistemi" telekommunikasiya şəbəkəsində istifadə olunan mobil cihazların texniki identifikasiya göstəriciləri barədə məlumatların vahid baza sisteminə daxil edilməsi, saxlanılması və emalı funksiyasını yerinə




yetirir. Bu sistem vasitəsi ilə texniki parametrləri standartlara uyğun olmayan, keyfiyyət əmsalları aşağı olan və insan orqanizmi üçün zərərli elektromaqnit şüalanmaları yayan mobil cihazların ölkəyə idxalının qarşısı alınır.

Məlumat üçün bildirək ki, mobil cihazların IMEI kodları üzrə elektron qeydiyyat "www.e-gov.az" portalı, "www.imei.az" saytı üzərindən və ya poçt şöbələrində aparılır.

# Ünvanlı dövlət sosial yardımını "Elektron hökumət" portalı vasitəsilə almaq mümkün oldu




**Ünvanlı dövlət sosial yardımın təyin olunma mexanizmi elektronlaşdırılaraq "Elektron hökumət" portalına inteqrasiya olundu**

Artıq ünvanlı dövlət sosial yardımı üçün müraciət və yardımın təyin olunması prosesi "Elektron hökumət" portalı üzərindən daha sadə və çevikdir. Vətəndaşın orta aylıq gəliri, xərcləri, ümumi maddi-məişət şəraiti onun müraciətindən əvvəlki son 12 (on iki) ay üzrə 22-dən artıq dövlət qurumunun informasiya ehtiyatlarından və sistemlərindən istifadə olunmaqla ətraflı qiymətləndirilir.

**Ünvanlı dövlət sosial yardımının alınması üçün elektron formada necə müraciət etməli?**

* **www.e-gov.az** portalına giriş edin;

* **"Qeydiyyatsız xidmətlər"** bölməsindən **Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin** xidmətləri sırasından "Ünvanlı sosial yardımla bağlı müraciətin edilməsi" elektron xidmətinə keçid edin;

*Xidmətə keçiddən sonra Vahid Elektron Müraciət və Təyinat Alt Sisteminə (VEMTAS) giriş interfeysi əks olunacaqdır. Açılan pəncərədə ailəni təmsil edən şəxsin **şəxsiyyət vəsiqəsinin nömrəsi** və **notarial qaydada təsdiq edilmiş ərizənin nömrəsini** qeyd edərək "daxil ol" düyməsini seçin;

**Daha ətraflı məlumatı**
https://www.e-gov.az/home/getfile/1209
**ünvanından əldə etmək mümkündür.**

Ünvanlı dövlət sosial yardımı üçün elektron müraciət zamanı **təmsilçilik barədə** ərizə tələb olunur. Bu ərizə yaşayış yeri üzrə rayon (şəhər) icra hakimiyyəti başçısının inzibati ərazi dairəsi və sahə inzibati ərazi dairəsi üzrə nümayəndəliklərin ailə tərkibi haqqında arayışına əsasən notariat orqanı tərəfindən təsdiq edilir.

Sosial yardımın alınması üçün müraciətlər VEMTAS tərəfindən 15 (on beş) iş günü müddətində araşdırılır və müvafiq qərar qəbul edilir. Məlumatlarda uyğunsuzluq aşkar olunmadığı hallarda, VEMTAS tərəfindən ailəyə sosial yardımın təyin olunması barədə, uyğunsuzluq aşkar olunduğu hallarda isə sosial yardımın təyin olunmasından imtina edilməsi barədə qərar çıxarılır.

Qeyd edək ki, 23 fevral 2015-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanmış Fərman əsasında sosial yardımın ünvanlanması prosesinin elektron təşkili üçün Vahid Elektron Müraciət və Təyinat Alt Sistemi formalaşdırılıb.

Nazirlər Kabinetinin 05 fevral 2016-cı il Qərarı ilə sosial yardımın ünvanlanması prosesinin Vahid Elektron Müraciət və Təyinat Alt Sistemi vasitəsilə təşkilinin hüquqi əsası təsdiq edilib.

# Gömrük Komitəsinin daha 5 xidməti elektronlaşdırıldı

"Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nın və "Elektron xidmət növlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında Nazirlər Kabinetinin 24 noyabr 2011-ci il tarixli qərarında əks olunan tapşırıqların təmin olunması məqsədilə Dövlət Gömrük Komitəsinin daha 5 xidməti elektronlaşdırılaraq "Elektron hökumət" portalına inteqrasiya edildi. İstifadəçilərin ixtiyarına verilən bu xidmətlər aşağıdakılardır:

- *"Elektron gömrük bəyannaməsinin aktivləşdirilməsi" (Elektron)*
- *"Elektron gömrük bəyannaməsinin aktivləşdirilməsi" (Kart)*
- *"Malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi üzrə elektron gömrük bəyannaməsinin qəbulu"*
- *"Elektron Gömrük Bəyannaməsi haqqında məlumatların əldə edilməsi"*
- *"Sərhəd-gömrük məntəqələrində qeydə alınan mallarım".*

Gömrük xidmətlərinin göstərilməsində şəffaflığın təmin edilməsi, sahibkarlar üçün əlverişli biznes mühitinin yaradılması və xarici ticarət əməliyyatlarının daha da stimullaşdırılması məqsədilə elektronlaşdırılan bu xidmətlərdən yararlanmaq üçün sahibkar ilk növbədə elektron imza sertifikatına sahib olmalıdır.

Bununla da Dövlət Gömrük Komitəsinin "Elektron hökumət" portalı üzərindən göstərdiyi elektron xidmətlərin sayı 12-yə çatdırılıb.

# "Elektron hökumət"in davamlı inkişafı üçün qarşıda duran prioritet məsələlər

Məlum olduğu kimi, "Elektron hökumət" portalı 2012-ci ilin aprel ayından istifadəyə verilib və həmin vaxt portala cəmi 16 dövlət qurumu üzrə 50-yə yaxın elektron xidmət inteqrasiya olunub. Hazırda isə portal üzərindən xidmət göstərən qurumların sayı 41, təqdim edilən xidmətlərin sayı isə 414-dür.

Portal yaranandan 2016-cı ilin oktyabrın 1-dək olan statistikaya əsasən portala müraciət edənlərin sayı 32 milyondan çox olub.

"Elektron hökumət" layihəsinin davamlı inkişafı üçün hazırda qarşıda duran və tam şəkildə həll edilməsi vacib olan əsas prioritet məsələləri aşağıdakı şəkildə sıralamaq olar:

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 noyabr 2011-ci il tarixli 191 nömrəli qərarı ilə təsdiq edilmiş "E-xidmətlərin siyahısı"na uyğun olaraq bütün qurumlar tərəfindən siyahıdakı xidmətlərin elektronlaşdırılması, mövcud texniki tələblərə uyğunlaşdırılması və portala inteqrasiyası.

Bu sahədə xeyli işlər görülüb və yuxarıda qeyd olunduğu kimi, hazırda portalda 414 e-xidmət vətəndaşların istifadəsindədir. Eyni zamanda qeyd edək ki, hələ bu sahədə görülməli işlər də çoxdur. Belə ki, NK tərəfindən təsdiq edilmiş 453 xidmətdən 331-i portala inteqrasiya edilib.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1 may 2014-cü il tarixli 118 nömrəli Qərarında göstərilən siyahıya uyğun olaraq "Elektron hökumət" portalına qoşulmalı olan İnformasiya Sistemlərinin (İS) və ehtiyatlarının portala qoşulmasının və qurumlararası informasiya mübadiləsinin təmin edilməsi, bu məqsədlə qurumların İS-nin müvafiq tələblərə cavab verməsi və Fərdi İdentifikasiya Nömrəsinə (FİN) uyğunlaşdırılması.

Dövlət qurumlarının informasiya sistemlərinin "Elektron hökumət" portalına inteqrasiyası və qurumlararası məlumat mübadiləsinin təşkili olduqca zəruridir və bunun üçün bütün qurumların öz üzərilərinə düşən vəzifələri vaxtında icra etmələri lazımdır. Bu məqsədlə Dövlət Reyestrlərində qeydiyyata alınmış İS-nin mütəmadi olaraq monitorinqi aparılır, İS-nin FİN-ə uyğunlaşdırılması üçün qurumlara dəstək verilir. Eyni zamanda, xidmət göstərən qurumlar tərəfindən abunəçilər sənədləşdirilərkən məlumatların ilkin mənbədən avtomatik olaraq götürülməsi və bununla da, abunəçi bazalarının formalaşması zamanı yaranan səhvlərin qarşısının tamamilə alınması istiqamətində qurumlarla müvafiq işlər aparılır, həmçinin, bəzi qurumların məlumatları qanunvericiliyə uyğun olaraq portal üzərindən servis şəklində aidiyyəti quruma ötürülür.

3. Qurumlar tərəfindən fərdi olmayan ictimai xarakterli məlumatların Açıq Hökumət Məlumatları Portalında (data.gov.az) yerləşdirilməsi.

Artıq "Elektron hökumət" portalının inkişaf çərçivəsi genişləndirilərək "E-Gov 3.0" mərhələsinə başlanılıb. Belə ki, ötən ilin yanvar ayında "data.gov.az" açıq məlumatlar portalı vətəndaşların istifadəsinə verilib və hazırda "data.gov.az" portalında 25 adda məlumat bazası istifadəyə açıq edilib. Həmçinin, açıq məlumatlar əsasında mobil və veb tərtibatların yazılması üzrə müsabiqə elan edilmiş və bir çox universitetlərdə tədbirlər, treninqlər təşkil olunmuş, maarifləndirmə işləri aparılıb.

Açıq məlumatlar portalında hazırda Ədliyyə, Rabitə və



Yüksək Texnologiyalar, Mədəniyyət və Turizm, Səhiyyə nazirliklərinin, "Azərsu" ASC-nin və Dövlət Gömrük Komitəsinin məlumatları yerləşdirilib. Digər qurumların da ictimaiyyətə açıq məlumatlarının «data.gov.az» ünvanında yerləşdirilməsi ilə bağlı əməkdaşlıq davam etdirilir.

4. Elektron arayışların çeşidinin artırılması və tətbiq sahələrinin genişləndirilməsi üçün lazımi tədbirlərin görülməsi.

Portalda yaradılmış "Elektron arayışlar" bölməsindən vətəndaşlar artıq 13 növ arayışı heç bir müəssisəyə getmədən "Elektron hökumət" portalından asanlıqla əldə edə bilirlər. Hazırda 25-dən artıq bank e-arayışlardan faydalanaraq kreditləşmə əməliyyatlarını həyata keçirir və qısa müddət ərzində kredit almaq üçün 200 mindən çox e-arayış portal vasitəsilə formalaşdırılaraq banklara və kredit təşkilatlarına təqdim olunub.

Qeyd edək ki, ölkə başçısının "Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimatın təsdiq edilməsi haqqında" 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmana dəyişikliklər edilməsi haqqında imzaladığı Fərman, həmçinin 2004-cü ildə imzaladığı "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanunu arayışların həm elektron şəkildə, həm də kağız şəklində çap edilərək aidiyyəti qurumlara təqdim edilməsinə və e-sənəd dövriyyəsinin genişlənməsinə hüquqi zəmin yaradır. Ölkəmizdə vətəndaşlardan kifayət qədər müxtəlif arayışlar və sənədlər tələb olunduğunu nəzərə alaraq elektron arayışların çeşidinin artırılması və tətbiq sahələrinin genişləndirilməsi prioritet məsələlərdəndir.

5. İcra hakimiyyəti orqanları və bələdiyyələr tərəfindən göstərilən bütün xidmətlərin elektronlaşdırılması və portala inteqrasiyası;

Bəzi icra hakimiyyətləri ilə əməkdaşlıq edərək bir sıra sosial xidmətlərin elektronlaşması istiqamətində işlər görülüb, fikir və təcrübə mübadiləsi aparılıb. "Yerli icra hakimiyyəti orqanlarının vəzifəli şəxslərinin qəbuluna "Elektron hökumət" portalı vasitəsilə yazılmaq və prosesin onlayn izlənilməsi" xidmətinin hazırda vətəndaşlar üçün daha çox aktual olduğu müəyyən edilmiş və bu xidmət tam şəkildə elektronlaşdırılaraq istifadəyə verilib. Hazırda bu sahə üzrə 20-dən çox xidmət elektronlaşdırılıb və tezliklə portal üzərindən vətəndaşların istifadəsinə veriləcəkdir.

www.e-gov.az

6. Elektron hökumət sahəsində maarifləndirmə xarakterli tədbirlərin, kursların, mühazirələrin, treninqlərin, müsabiqələrin və s. təşkil edilməsi. Vətəndaşların irad, rəy və təkliflərinin öyrənilməsi və dəyərləndirilməsi.

Bir çox ali məktəblərdə, kolleclərdə e-hökumət istiqaməti üzrə maarifləndirici tədbirlər həyata keçirilir, tələbələrə "Elektron hökumət" portalı, e-imza, e-xidmətlər, açıq məlumatlar və startup layihələr barədə geniş məlumat verilir.

Bundan başqa, təqdim olunan xidmətlərin keyfiyyətinin artırılması üçün "157 Zəng (Çağrı) Mərkəzi” fəaliyyət göstərir ki, mərkəz qurumlarla bağlı daxil olunan müraciətləri dərhal aidiyyəti qurumun zəng mərkəzinə yönləndirir. Bununla da, vətəndaşların digər qurumlarla bağlı müraciətləri vaxt itirilmədən yönləndirilir və cavablandırılır.

Qeyd edək ki, "Elektron hökumət" üzrə gözlənilən nəticələrin əldə olunması üçün istər qurumların, istərsə də vətəndaşların bu sahədə aktiv iştirakı olduqca vacibdir.

# “Elektron hökumət” köşkü vətəndaşların ixtiyarında




“Elektron hökumət" portalının operatoru olan Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzi Bakı şəhəri Səbail rayonu, Üzeyir Hacıbəyov 72 ünvanında yerləşən “Azərpoçt” MMC-nin 1 saylı Poçt filialında “Elektron hökumət” köşkü yerləşdirib. Statistikaya görə, köşkdən hər gün onlarla vətəndaş yararlanıb. Vətəndaşların istifadəsinə verilən bu köşkdə portal haqqında məlumatlar verilərək, xidmətdən istifadə çətinliyi olan vətəndaşlara xidməti test etmək kimi fürsətlər yaradılıb. Bununla yanaşı, vətəndaşlar bu köşkə yaxınlaşmaqla portala giriş etmək üçün kod/parol əldə etmək istədiyini bildirərək şəxsiyyət vəsiqəsi ilə heç bir ödəniş etmədən kod parol əldə edə, həmçinin, e-imza sifariş edə bilərlər.

İctimai xidmətləri virtual mühitdə “bir pəncərə” prinsipi ilə toplayan "Elektron hökumət" portalı öz işini vətəndaş məmnuniyyəti üzrə inkişaf etdirməkdədir. Yeni qurumların, yeni xidmətlərin portala inteqrasiyası, yeni bölmələrin, funksionallıqların yaradılması, qeydiyyatın və istifadənin sadələşdirilməsi, portalın geniş ictimaiyyətə çatdırılması istiqamətində xeyli işlər görülərək inkşafı dinamik şəkildə davam etdirilir.

# "Azərpoçt"dan yenilik

## Poçt ünvanları, poçt indeksləri, poçtla mobil rabitə, poçtların iş rejimi, poçt məntəqəsinə gedən marşrut barədə məlumatı "Poçt ünvanları" mobil tətbiqi vasitəsilə əldə edin!




Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən poçt şöbələrinin ünvanlarının axtarışını asanlaşdıran mobil tətbiq istifadəyə verilib. Nazirliyin Məlumat Hesablama Mərkəzi tərəfindən hazırlanan "Poçt ünvanları" adlı mobil tətbiq artıq "iOS" və "Android" əməliyyat sistemində işləyən qurğular üçün aktivləşdirilib. Tətbiq "Azərpoçt" MMC-nin 1600-dən çox poçt şöbəsinin ünvanları barədə məlumatların xəritə üzərində bir neçə saniyədə axtarışını mümkün edir.

**"Poçt ünvanları" mobil tətbiqinin funksionallıqları:**

"Poçt ünvanları" mobil tətbiqinin funksional imkanları genişdir. Aşağıda qeyd olunan funksionallıqlar poçt məntəqəsi üzrə axtarış zamanı istifadəçinin işini sadələşdirəcək:

* **"mətni kopyala"** funksionallığı əldə olunan məlumatların saxlanılmasına kömək edəcək;

* **"zəng et"** vasitəsilə seçilmiş poçt məntəqəsinə zəng etmək olar;

* **"marşrutu göstər"**-i seçdikdə lokasiya üzrə poçt məntəqəsinə olan nəqliyyat marşrutu göstərilir;

* **"Google Maps"**-də "göstər" funksiyasını seçdikdə lokasiya üzrə poçt məntəqəsinə olan məsafə, həmin məsafəni qət etmək üçün vasitələr (şəxsi nəqliyyat, ictimai nəqliyyat və piyada marşrutu) və bu vasitələrə uyğun olaraq sərf ediləcək vaxt göstərilir.

Tətbiqdə istifadə olunan xəritə "Google Maps" üzərindən çalışır. Bunun üçün də, tətbiqin istifadəsi zamanı cihazın GPS naviqasiya sistemi açıq olmalıdır.

**"Poçt ünvanları" mobil tətbiqini necə əldə etməli?!**

Tətbiqi "App Store" və "Play Store"da **"Poçt ünvanları"** yazıb axtarış etməklə mobil qurğunuza yükləyə bilərsiniz.

Nəzərinizə çatdıraq ki, "Poçt ünvanları" mobil tətbiqindən istifadə ödənişsizdir.

Tətbiqin istifadəçi təlimatını tam olaraq bu ünvandan əldə etmək olar: https://www.e-gov.az/home/getfile/1268

# "Elektron hökumət" portalında daha bir yenilik




Portal istismara verilən tarixdən bu günədək "Elektron hökumət" portalının təqdim etdiyi xidmətlərə müraciət sayı 32 milyondan artıqdır. Bu statistik rəqəmi portala yerləşdirilmiş sayğac vasitəsi ilə hər bir vətəndaş real vaxt rejimində izləyə bilər.

Elektron xidmətlərdən bəhrələnən bu istifadəçi dinamikası ölkəmizdə "Elektron hökumət" ideyasının sürətlə gerçəkləşməsini təsdiq edir. Portalın təqdim etdiyi 414 sosial xidmət, 13 elektron arayış, 250 növ ödəmələri özündə birləşdirən elektron ödənişlər sistemi və bank xidmətlərindən istifadə sayının saniyələrlə artdığını sayğac vasitəsilə müşahidə etmək mümkündür.

"Elektron hökumət"i meydana gətirən təməl ünsürləri dövlət qurumlarının, təşkilatların elektronlaşması ilə yanaşı, vətəndaşların da "elektronlaşmasıdır". Artıq elektron xidmətlərdən istifadə etmək vərdişinə yiyələnən vətəndaşların say çoxluğu xidmətlərin rəqəmsal mühitə daşınmasının zərurət olduğunu bir daha sübut edir.

# Banklar “Elektron hökumət” portalı üzərindən öz xidmətlərini təklif edir

## Artıq dövlət qurumları ilə yanaşı, banklar da xidmətlərini portala inteqrasiya edirlər




“Elektron hökumət” quruculuğu üzrə sosial əhəmiyyətli uğur olan Hökumət Ödəniş Portalının “Elektron hökumət” portalına inteqrasiyasından sonra portal bu sahədə daha bir yeniliyə təşəbbüs göstərdi. Belə ki, istifadəçilərin müraciətləri nəzərə alınaraq portalda “Bank xidmətləri” bölməsi yaradılıb. Bununla da, dövlət qurumları ilə yanaşı, banklar da öz xidmətlərini portala inteqrasiya etmiş oldular.

Bu bölməyə ilkin olaraq “Bank of Baku” tərəfindən təqdim olunan “Debet kartlarının sifarişi” elektron xidməti daxil edilib. Əvvəllər nağd hesablaşmaya üstünlük verən vətəndaşlar artıq ölkədə təşəkkül tapmaqda olan rəqəmsal mühitin tələblərini qarşılamaq, rahat və təhlükəsiz ödəniş etmək üçün elektron ödənişlərə və debet kartlardan istifadəyə üstünlük verir. Bankomat və ya POS-terminallar vasitəsilə nağd vəsaitlərin alınması üçün istifadə edilən bu texniki vasait elektron ticarətin mühüm elementidir.

Portal üzərindən açıq edilmiş “Debet kartlarının sifarişi” elektron xidməti vasitəsilə vətəndaşlar Bolkart Debet Gənc, Bolkart Debet Ailə, Bolkart Debet Gold, Bolkart Debet Diamond, Visa Gold, Visa Classic, MC Gold, MC Standard, Maestro kartlarının sifarişini həyata keçirə bilirlər. Xidmətin portal üzərindən həm qeydiyyatsız, həm də qeydiyyatlı istifadəsi mümkündür. Qeydiyyatsız istifadə zamanı vətəndaşdan şəxsiyyət vəsiqəsinin surəti tələb olunur. Qeydiyyatlı istifadədə isə vətəndaş portal tərəfindən tanındığına görə buna gərək yoxdur. Xidmətin istifadəsi zamanı açılan formada kart haqqında məlumatları seçimə uyğun işarələdikdən sonra sifarişçinin şəxsi məlumatları avtomatik olaraq sistem tərəfindən ekrana çıxarılır. Prosesin sonunda əlaqə nömrələri daxil olunur, kartın təhvil alınacağı filial seçilir. 4 mərhələdən ibarət olan bu elektron sifariş zamanı hər dəfə "davam et" düyməsi seçilməklə sistem növbəti mərhələyə keçid edir və yekun olaraq, “göndər” düyməsi ilə sifariş əlaqəli banka yönləndirilir.

Qeyd edək ki, tezliklə digər bankların da öz xidmətlərini portala inteqrasiya edəcəkləri gözlənilir.

Distant bank xidmətlərinin portalda toplanılması istifadəçinin xidmət axtarışı qayğısını aradan qaldırmaqla yanaşı, bank əməliyyatlarının elektron təşkilini təmin edəcək. Vətəndaş inandığı elektron xidmət məkanından istifadə etməklə bank işlərini həll edərkən, bank da ənənəvi formada edilən müraciətlərə ayırdığı zaman və işçi qüvvəsinə qənaət etmiş olacaq.

# Müştərilər arayışları "www.e-gov.az" portalından formalaşdıraraq banka təqdim edə biləcəklər




Artıq 2016-cı ilin yanvarın 1-dən “Kapital Bank”, “Azər-Türk Bank”, “Caspian Development Bank”, “TBC Kredit”, “İdeal kredit” və “Merkuri” bank olmayan kredit təşkilatlarının müştəriləri də "Elektron hökumət" portalı vasitəsilə təqdim olunan "Elektron arayış"lardan istifadə edərək bank xidmətlərinə müraciət edə biləcək.

Elektron arayış müxtəlif dövlət orqanlarının elektron informasiya ehtiyatları əsasında hazırlanmış elektron sənəddir. "Elektron arayış"lar bank xidmətlərindən istifadə zamanı vaxt itkisinin qarşısını almaqla vətəndaşın rahatlığını təmin edir. Xidmətin digər üstünlüyü vətəndaşın işlədiyi müəssisədən arayış almaq zəruriyyətinin aradan qaldırılmasıdır.

### "Elektron arayış"lar vasitəsilə banka necə müraciət etməli?!

| ***"Elektron hökumət" portalının istifadəçisi olmayan vətəndaş:*** | ***"Elektron hökumət" portalının istifadəçisi:*** |
|---|---|
| *şəxsiyyət vəsiqəsini təqdim edir;* | *istənilən yerdə portala daxil olaraq bankın tələb etdiyi arayışları çap edir və ya elektron şəkildə banka ünvanlayır,* |
| *bankın əməkdaşı vətəndaşı portala giriş üçün istifadəçi adı və şifrə ilə təmin edir;* | *elektron arayışın həqiqiliyi, portal vasitəsilə təqdim olunan* ***"Elektron arayışların yoxlanılması"*** *xidməti vasitəsilə yoxlanılır.* |
| *vətəndaş müvafiq arayışları elektron cihaz vasitəsilə çap edir.* | |



# "Elektron ipoteka" sistemi "Elektron hökumət" portalına inteqrasiya ediləcək

Prezident İlham Əliyev "Azərbaycan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyətinin (ASC) vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası haqqında Fərman imzalayıb.

Fərmanın 4-cü bəndinə əsasən, ASC-nin vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi məqsədi ilə "Elektron hökumət" portalında "Elektron ipoteka" sisteminin yaradılması və 2017-ci il yanvarın 1-dən tətbiq edilməsi nəzərdə tutulur.

"Elektron ipoteka" sisteminin "Elektron hökumət" portalına inteqrasiya edilməsi portalın operatoru olan Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Məlumat Hesablama Mərkəzinin üzərinə bir sıra öhdəliklər qoyur. Fərmanın 7-ci bəndinə əsasən, Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi aşağıdakı vəzifələri icra etməlidir:

* "Elektron ipoteka" sisteminin "Elektron hökumət" portalına inteqrasiyasını və müvafiq dövlət qurumlarının informasiya sistemlərindən məlumatların bu sistemə ötürülməsi imkanını təmin etmək;

* ipoteka kreditinin alınması üçün tələb edilən, aidiyyəti dövlət qurumlarının informasiya sistemlərində mövcud olan aşağıdakı məlumatların müvəkkil banklar tərəfindən "Elektron ipoteka" sistemi vasitəsilə alınmasını təmin etmək:

*- ipoteka krediti almaq istəyənin şəxsiyyətini təsdiq edən sənəd üzrə məlumatlar;*

*- ipoteka krediti almaq istəyən şəxsin nikah (və ya nikahın pozulması) haqqında şəhadətnaməsi üzrə məlumatlar;*

*- ipoteka krediti almaq istəyən şəxsin (birgə borcalanın) iş yerini və gəlirlərini təsdiq edən məlumatlar;*

*- ipoteka krediti almaq istəyən şəxsin ailə tərkibi barədə məlumatlar;*

*- vergi orqanları tərəfindən qəbul olunmuş gəlir vergisi və ya sadələşdirilmiş vergi bəyannaməsi;*

*- mərkəzləşdirilmiş kredit reyestrindən məlumatlar;*

*- ünvan reyestrinin məlumatları;*

* "Elektron ipoteka" sisteminin təşkilində və fəaliyyətinin təmin olunmasında ASC-yə kömək göstərmək.

Nəticə olaraq "Elektron ipoteka" sisteminin "Elektron hökumət" portalına inteqrasiyası təmin ediləcək. Bunun üçün "Elektron hökumət" portalının operatoru olaraq RYTN, "Elektron hökumət" portalının informasiya bazası üzərindən müvafiq dövlət qurumlarının informasiya sistemlərindəki məlumatların bu sistemə ötürülməsi imkanını təmin etməli, həmçinin, aidiyyəti dövlət qurumlarının informasiya sistemlərində mövcud olan məlumatların "Elektron ipoteka" sistemi vasitəsilə müvəkkil banklara göndərilməsini təmin etməlidir. Bu isə vətəndaşların ipoteka üçün müraciətini xeyli asanlaşdıracaq. İstifadəçi kompüteri qədər ona yaxın olan elektron xidmət vasitəsilə həftənin 7 günü, sutkanın 24 saatı, heç yerə getmədən sənədlərini portal üzərindən avtomatik formalaşdıraraq ipoteka krediti almaq istədiyi müvafiq banka göndərə biləcək.

# "www.e-gov.az" və Fərdi İdentifikasiya Nömrəsi (FİN)

## Müraciət etdiyimiz qurumlarda anket tamamlayarkən, həmçinin, son vaxtlar daha çox istifadə etdiyimiz elektron xidmətlərdə və müraciətlərdə bizdən FİN-kodu qeyd etməyimiz tələb olunur




**BƏS FİN KOD NƏDİR?**

FİN kod–şəxsiyyət vəsiqəsinin Fərdi İdentifikasiya Nömrəsidir. Fərdi İdentifikasiya Nömrəsi, şəxs barəsində dövlət reyestrinə daxil edilən məlumatları müəyyən etməyə imkan verən, qanunla müəyyən olunmuş qaydada təqdim edilən təkrarolunmaz koddur. Yəni dövlət reyestrinə məlumatlar daxil edilərkən Fərdi İdentifikasiya Nömrəsindən istifadə olunur ki, bununla da daxil olan məlumatlar fərqləndirilir, təkrara yol verilmir və həmin məlumatlardan səmərəli istifadə edilir. Fərdi İdentifikasiya Nömrəsi yeddi simvollu hərf və rəqəm kombinasiyasından ibarət olan vahid koddur, heç vaxt dəyişilmir. Bu, şəxsiyyət vəsiqənizin fotoşəkliniz olan üzündə, sağ aşağı küncündəki, axırdan birinci rəqəmi çıxmaqla, sonrakı 7 rəqəm və hərflərdən ibarət koddur.

Qeyd edək ki, “Elektron hökumət” portalında autentifikasiyadan (qeydiyyatdan) keçən vətəndaşı portal identifikasiya etdiyi üçün xidmətlərdən istifadə zamanı FİN kod tələb olunmur. Məsələn, Təhsil Nazirliyinin təqdim etdiyi “Diplom haqqında məlumatlar” xidmətindən istifadə edərkən xidmət vətəndaşa “Diplomun seriya və nömrəsinə görə”, “FİN-ə görə” kateqoriyası üzrə iki seçim verir. Vətəndaş FİN-ə görə kateqoriyasını seçdikdə məlumatlar sistem tərəfindən avtomatik formalaşdırılır.

# Pensiyanızın məbləğini özünüz hesablayın

## Pensiyanızın məbləğini "Elektron hökumət" portalı vasitəsilə hesablayın

Hər birimiz çalışırıq ki, iş fəaliyyətimizi həm gündəlik tələbatlarımız, həm də gələcək təminatımız üzərində quraq. Buna görə də gələcəkdə əldə edəcəyimiz pensiya məbləği bizə maraqlıdır. Pensiya məbləğini "Elektron hökumət" portalı "www.e-gov.az" vasitəsilə öyrənmək üçün sadəcə bir neçə saniyə lazımdır. Portal vasitəsilə istifadəçi kompüter və internetin olduğu istənilən məkandan 41 qurumun elektron xidmətlərinə keçid edə bilir.

Belə elektron xidmətlərdən biri "Pensiya kalkulyatoru"dur. Xidmətdən yararlanmaq üçün ilk olaraq,

**1.** "www.e-gov.az" portalına aşağıda göstərilmiş vasitələr,

- *elektron imza;*
- *e-gov identity;*
- *asan imza;*
- *istifadəçi adı və şifrə ilə daxil oluruq.*

**2.** Dövlət Sosial Müdafiə Fondunun elektron xidmətləri arasından "Pensiya kalkulyatoru"nu seçirik.

**3.** Növbəti mərhələdə, ekranda əks olunan xanalarda 2006-cı ilə qədər iş stajını il ilə (nümunə üçün 5 il) və 2006-cı ilə qədər iş stajını ay ilə (nümunə üçün 11 ay) qeyd edib "göndərmək" düyməsini seçirik (2006-cı ilə qədər iş təcrübəniz varsa).

Daxil etdiyiniz məlumatlara uyğun olaraq işlədiyiniz illər üzrə yekun pensiya məbləği təqdim olunur.

Onu da qeyd edək ki, bu elektron xidmət pensiya məbləğini hesablamaqla yanaşı, sığorta olunanlara illər üzrə ayrılmış pensiya kapitalına nəzarət etmək imkanı verir.



# Belarusun “Elektron hökumət” portalı ilə əməkdaşlığın təməli qoyuldu

Belarusun paytaxtı Minsk şəhərində keçirilən "TIBO-2016" Beynəlxalq informasiya-kommunikasiya sərgi-forumunda ölkəmizi təmsil edən dövlət, özəl və qeyri-hökumət təşkilatlarının 40-a yaxın təmsilçisi, o cümlədən “Elektron hökumət” portalının operatoru olan Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Məlumat Hesablama Mərkəzinin (MHM) nümayəndə heyəti iştirak edib.




Sərgidə 18 ölkənin 100-dən artıq şirkəti informasiya texnologiyaları sahəsində inkişaf və nailiyyətlərini təqdim edib.

Sərgi çərçivəsində Belarusun bir çox aparıcı şirkətlərinin mütəxəssisləri, o cümlədən elektron hökumət, e-imza xidmətlərini təmin edən qurumlar ilə gələcək əməkdaşlıq əlaqələri müzakirə edilib.

Azərbaycanın Milli Pavilyonunu ziyarət edən rəsmi şəxslər ölkəmizin İKT sahəsində əldə etdiyi yeniliklərlə yanaşı, “Elektron hökumət” portalının operatoru tərəfindən nümayiş etdirilən yeni nəsil şəxsiyyət vəsiqəsi, çeşidli kart oxuyucular, yeni USB token e-imza daşıyıcıları ilə də tanış olublar.

Telekommunikasiya, təhlükəsizlik, informasiya və bankçılıq texnologiyaları üzrə keçirilən bu sərgi çərçivəsində, həmçinin, Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və Belarus Respublikasının Rabitə və İnformasiyalaşdırma Nazirliyi arasında hər iki ölkənin informasiya texnologiyaları üzrə şirkətlərinin iştirakı ilə 3-cü Belarus-Azərbaycan İKT Forumu keçirilib.

Forum iştirakçıları informasiya xidmətlərinin keyfiyyətinin yaxşılaşdırılması, avtomatlaşdırma, ticarətdə innovativ texnologiyalar, təhsil, səhiyyə və digər məsələləri müzakirə ediblər. MHM-in mütəxəssisləri isə İKT sahəsində əldə edilmiş yenilikləri, bilinq sistemi, AzDataCom, "Elektron hökumət" portalı, elektron imza, yeni nəsil şəxsiyyət vəsiqəsi, mobil nömrə daşınması xidməti, mobil cihazların qeydiyyat sistemi və s. kimi müəssisədə aparılan layihələr haqqında forum iştirakçılarına məlumat veriblər.

Qeyd edək ki, 23-cü dəfə təşkil olunan "TIBO-2016" ixtisaslaşmış sərgisi Müstəqil Dövlətlər Birliyi və Baltikyanı ölkələrin ən böyük informasiya-kommunikasiya texnologiyaları (İKT) tədbirlərindən biri hesab olunur.






# Azərbaycanın "Elektron hökumət" modeli Rusiyada təqdim edildi

Rusiyanın Beynəlxalq informasiya və telekommunikasiya texnologiyaları sərgisi olan "Svyaz-2016" ənənəvi olaraq dünyanın qabaqcıl şirkətlərini və mütəxəssislərini bir araya toplayıb.







Avropada ən böyük və ən nüfuzlu tədbir hesab olunan "Svyaz" sərgisi 40 illik inkşaf dövründə telekommunikasiya sənayesinin nailiyyətləri, informasiya texnologiyaları, idarəetmə sistemləri və rabitə xidmətlərinin nümayişi üçün platforma rolunu oynayıb.

Yeni avadanlıq, texnologiya və ya xidmət təqdim etmək, yeni biznes əlaqələri üçün münbit məkan olan bu sərgidə, müasir həyatın müxtəlif sahələrində innovativ texnologiyaların tətbiq imkanları ilə yanaşı, milli və informasiya təhlükəsizliyi baxımından əhəmiyyətli olan proqram təminatlarının yaradılmasına dair görülən işlərin nəticələri barədə yekun hesabatlar təqdim edilib.

10-13 may tarixində Rabitə və yüksək texnologiyalar nazirinin müavini Elmir Vəlizadənin rəhbərliyi ilə Azərbaycan nümayəndə heyəti, o cümlədən, "Elektron hökumət" portalının operatoru olan Məlumat Hesablama Mərkəzinin mütəxəssisləri Moskva "Eksposentr"də keçirilən sərgidə iştirak edib.

Sərgidə Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ayrıca pavilyonla təmsil olunub.

İştirakçıların marağına səbəb olan stenddə sektor üzrə əldə olunan nailiyyətlər, eləcə də "Elektron hökumət" modeli nümayiş olunub.

50 000 ziyarətçinin və mütəxəssisin qatıldığı sərginin 4 günlük iş günü ərzində ölkəmizin yüksək texnologiyalar sahəsi üzrə təqdim etdiyi xidmətlər sərgi iştirakçıları ilə bərabər, Rusiya, Çin kimi ölkələrin şirkətlərinin diqqətini cəlb edib və həmin ölkələrlə əməkdaşlıq əlaqələri müzakirə edilib.

# "Elektron Estoniya"nın fundamental elementi: "X-Road"

Estoniya ərazicə kiçik ölkə olsa da, informasiya texnologiyaları sahəsində yüksək inkişafa nail olub.

Ölkədə elektronlaşmanın səviyyəsini "Elektron Estoniya" təyin edir. E-Estoniyanın mühüm elementlərindən biri məlumat sistemlərinin paylanmasıdır. Belə ki, məlumat sistemlərinin tək bir sahibi və ya nəzarətçisi yoxdur. İstənilən dövlət və ya özəl qurum istifadə məqsədilə özünə uyğun məlumatı əldə edə bilər. Sistemin digər bir üstünlüyü xidmətlərin elektronlaşdırılan kimi avtomatik olaraq sistemə əlavə olunmasıdır.

"E-Estoniya" çərçivəsində təqdim edilən və məlumat mübadiləsinə xidmət edən "X-Road" adlanan geniş infrastruktur dövlət və özəl sektora məxsus müxtəlif elektron xidmət bazalarını əlaqələndirir.

"X-Road" informasiya sistemləri arasında qarşılıqlı mübadiləyə imkan yaradır. Estoniyanın çoxşaxəli informasiya bazalarından istifadə edən bütün elektron həllər bu sistemdən faydalanır. "X-Road"dan ötürülən məlumatlar rəqəmsal olaraq imzalanır və kodlaşdırılır. Daxil olan məlumatlar isə təsdiqlənərək qeydə alınır.

Əslində bu sistem ilk öncə məhdud sayda məlumat bazalarına müraciət üçün nəzərdə tutulmuş bir sistem olub. Sonradan inkişaf etdirilərək informasiya mübadiləsi və müxtəlif məlumat bazaları üzrə axtarışı reallaşdıran, çoxşaxəli bazalara yazılabilən sistemə çevrilib.

"X-Road" elə dizayn olunub ki, müxtəlif platformaların inteqrasiyası ilə miqyası genişləndirilə və yeni xidmətlər yaradıla bilər.

- 2013-cü ildə "X-Road" vasitəsilə 287 milyon sorğu həyata keçirilib.
- 170 informasiya bazası xidmət təklif edir.
- 2000 xidmətə müraciət olunur.
- Estoniya əhalisinin 50%-i "X-Road"dan faydalanır.

**"X-Road" çevik və rahat xidmət təminatını mümkün edir:**

- *Daimi yaşayış yerinin elektron qeydiyyatı;*
- *Fərdi məlumatların (ünvan qeydiyyatı, imtahan nəticələri, sağlamlıq sığortası və s.) yoxlanılması;*
- *Onlayn vergi bəyannamələri;*
- *sürücülük vəsiqəsi və avtomobilin qeydiyyat şəhadətnaməsinin etibarlılıq müddətinin onlayn yoxlanılması;*
- *Yeni doğulan körpəyə avtomatik sağlamlıq sığortasının verilməsi.*

# Azərbaycanın "Elektron hökumət" modeli Sinqapurda nümayiş etdirildi

"Elektron hökumət" portalı "Sinqapur Milli Universiteti" (NUS) nəzdində fəaliyyət göstərən "Sistem Elmləri İnstitutu"nun "Elektron Hökumət Liderlik" (eGL) mərkəzində keçirilmiş "Elektron Hökumət Effektiv Strategiyalar" mövzusunda təşkil olunmuş seminarda təmsil olunub.

Beş gün davam edən seminarda professional müəllim və mütəxəssis heyəti tərəfindən nümayəndələrə dərslər keçirilib, "elektronlaşmanın inkişaf mərhələləri və bu istiqamətdə istifadə edilən yanaşmalar", "xidmətlərin hazırlanma metodologiyaları və vətəndaş istifadəsi", "dəyişikliklərin idarəedilməsi, bu prosesdə qarşıya çıxan problemlər, onlara yanaşma və həll edilmə yolları" mövzularında müzakirələr aparılıb.

Sinqapurun, eləcə də digər ölkələrin üzləşdiyi qlobal problemlər (əhalinin sıxlığı, sağlam həyat, mobil yaşam və s.), onların həlli yolları və gələcəyə yönəlik tədbirlər diqqətə çatdırılıb.

Kursda iştirak edən "Elektron hökumət" portalının mütəxəssisi Cəmşid Naxçıvanski ölkəmizin "Elektron hökumət" modeli, "Elektron hökumət" portalı, Açıq Hökumət Məlumatları portalı üzrə görülmüş işlər barədə təqdimat əsasında məlumat verib.

Həmçinin ölkələr arasında təcrübə mübadiləsi məqsədilə təşkil edilmiş kursda elektron xidmətlərlə bağlı müxtəlif tipli məlumatların analizi və mütərəqqi konsepsiyaların inkişaf modellərinin təhlili aparılıb. Habelə, elektron mühitin inkişafında sosial medianın rolu barədə məlumatlar verilib.




19 ölkəni təmsil edən 21 nümayəndənin iştirak etdiyi kursun son günü iştirakçılar sertifikatla təltif olunub.

# Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yeni elektron xidməti portala inteqrasiya olundu

Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Məlumat Hesablama Mərkəzinin operatoru olduğu “Elektron hökumət” portalına yeni elektron xidmət inteqrasiya olunub. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təqdim etdiyi “İstehsalatda baş verən bədbəxt hadisə barədə aidiyyəti dövlət strukturuna məlumatların verilməsi” xidməti elektronlaşdırılaraq portal üzərindən istifadəyə verilib.

Yeni xidmət iş yerlərində istehsalatla əlaqəli bədbəxt hadisələr barədə aidiyyəti dövlət strukturuna məlumatın verilməsi prosedurunun elektron əsaslar üzərində təkmilləşdirilməsi, bu sahədə təhqiqat işinin operativ şəraitdə və müasir tələblərə uyğun təşkil edilməsinə yönəlib.

Qeyd edək ki, əmək qanunvericiliyinə görə, hər bir işəgötürən istehsalatda baş verən bədbəxt hadisələrin təhqiqatının aparılması üçün hadisə haqqında dövlət nəzarətini həyata keçirən dövlət strukturuna, yəni Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinə məlumat verməyə borcludur. Xidmətin elektronlaşması baş vermiş bədbəxt hadisələr barədə işəgötürənlər tərəfindən məlumat verilməsi prosesinin sürətlənməsinə şərait yaradır.

Adı çəkilən xidmətdən istifadə edən dövlət qurumları, hüquqi və fiziki şəxslər “elektron imza” kartı (yaxud Mobil Autentifikasiya Sertifikatı) ilə autentifikasiyadan keçərək “Elektron hökumət” portalına (www.e-gov.az) daxil olduqdan sonra Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin “İstehsalatda baş verən bədbəxt hadisə barədə aidiyyəti dövlət strukturuna məlumatların verilməsi” e-xidmətini seçir. Bu zaman işəgötürən haqqında məlumatlar sistem tərəfindən avtomatik rejimdə müəyyən olunur. İstifadəçi bədbəxt hadisənin baş verdiyi tarixi, saatı və ünvanı, hadisə haqqında qısa məlumatı, onun baş vermə şəraitini, zərərçəkənlər, habelə hadisə ilə bağlı məlumat verən şəxs barədə məlumatları daxil edir. Qeyd edək ki, sistem zərərçəkən barədə məlumatı da avtomatik rejimdə müəyyən edir.

İstifadəçi müraciəti təsdiq etdikdən sonra müraciət dərhal sistemdə qeydiyyata alınır və istifadəçiyə istehsalatda baş verən bədbəxt hadisə barədə məlumatların qeydiyyata alınmasına dair “Bildiriş” göndərilir.

www.e-gov.az






# Vətəndaşlar əmək müqaviləsi üzrə bildirişləri "Elektron hökumət" portalı vasitəsilə əldə edə bilirlər

"Fərdi məlumatlar haqqında Qanun"un tələblərinə uyğun olaraq, dövlət qurumlarının mülkiyyətində olan bir çox informasiya ehtiyatlarında vətəndaşlar haqqında toplanmış fərdi məlumatlar hazırda vətəndaşlara açıq edilib və fərdə aid müxtəlif məzmunlu informasiyalar "Elektron hökumət" portalı üzərindən əlçatandır.

Portalın vətəndaşlara göstərdiyi belə xidmətlərdən biri "Əmək müqaviləsi bildirişləri barədə məlumatların işçilər tərəfindən əldə edilməsi"dir. Bu xidmətdən vətəndaşlar aktiv şəkildə istifadə edirlər və statistik göstəricilərinə əsasən, xidmətdən bu günə qədər 978089 dəfə istifadə olunub. Sözügedən xidmət vasitəsilə vətəndaşlar əmək müqaviləsi üzrə əks olunan məlumatlarla tanış ola, həmçinin bildirişi PDF formatında kompüterlərinə yükləyə bilərlər.

Bu xidmət Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "Əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması və bu barədə işəgötürənə məlumatın verilməsi" elektron xidməti əsasında yaradılmış informasiya sistemi əsasında formalaşdırılıb. 2014-cü ildən etibarən, işə götürənlər qarşısında qoyulan əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması tələbi işçi hüquqlarının qorunması, habelə, vergidən yayınma kimi xoşagəlməz halların aradan qaldırılmasına xidmət edir.

"Elektron hökumət" portalı 2012-ci ildən etibarən artıq 4-cü ildir ki, fərdi məlumatlar üzrə informasiya sistemlərinin müvafiq standartlara uyğunlaşdırılması və portala inteqrasiyası üzərində işləyir. Bu gün portal üzərindən təqdim edilən əmək müqaviləsi bildirişləri, iş yerinə dair çıxarışlar (arayış) məhz davam etməkdə olan bu fəaliyyətin nəticəsidir.

# Ölkəmizin BMT-nin "Elektron Hökumətin İnkişaf İndeksi" üzrə mövqeyi 12 pillə yüksəldi




Ölkəmiz Birləşmiş Millətlər Təşkilatının (BMT) ənənəvi olaraq hər iki ildən bir nəşr etdiyi "E-Government Survey 2016" adlı hesabatında **əvvəlki mövqeyini 12 pillə artıraraq 68-ci yerdən 56-cı yerə yüksəlib.**

Hesabatın builki nəşrində *"Elektron Hökumətin İnkişaf İndeksi"* və *"Elektron-İştirak İndeksi"* üzrə BMT-nin 193 üzv ölkəsinin reytinqi müəyyənləşdirilib.

Hesabatda *"Elektron Hökumətin İnkişaf İndeksi"* üzrə ölkələr ümumilikdə topladığı xala görə 4 qrup üzrə təsnifləşdirilib (çox yüksək, yüksək, orta, zəif).

Qeyd edək ki, *"Elektron Hökumət İnkişaf İndeksi"* (EGDI) üzrə **Azərbaycan** əvvəlki hesabatdakı kimi "Yüksək" EGDI ölkələr qrupuna daxil edilib.

Table 16. Regional and Economic Groupings for E-Government Development Index (EDGI)

| Country | Region | Sub-Region | EGDI Level | Level of Income | GNI Per Capita (US dollars) |
|---|---|---|---|---|---|
| Afghanistan | Asia | Southern Asia | Low | Low Income | 670 |
| Albania | Europe | Southern Europe | High | Upper Middle Income | 4460 |
| Algeria | Africa | Northern Africa | Medium | Upper Middle Income | 5480 |
| Andorra | Europe | Southern Europe | High | High Income | 43270* |
| Angola | Africa | Middle Africa | Medium | Upper Middle Income | 4850 |
| Antigua and Barbuda | Americas | Caribbean | Medium | High Income | 13360 |
| Argentina | Americas | South America | High | High Income | 14160 |
| Armenia | Asia | Western Asia | High | Lower Middle Income | 3780 |
| Australia | Oceania | Oceania | Very high | High Income | 64680 |
| Austria | Europe | Western Europe | Very high | High Income | 50390* |
| Azerbaijan | Asia | Western Asia | High | Upper Middle Income | 7590 |
| Bahamas | Americas | Caribbean | High | High Income | 20980 |
| Bahrain | Asia | Western Asia | Very high | High Income | 21050* |
| Bangladesh | Asia | Southern Asia | Medium | Lower Middle Income | 1080 |
| Barbados | Americas | Caribbean | High | High Income | 14960** |
| Belarus | Europe | Eastern Europe | High | Upper Middle Income | 7340 |

- EGDI qrupunda dünya ölkələri arasında Birləşmiş Krallıq liderlik edir. Qeyd edək ki, əvvəlki hesabatda liderlik edən Koreya hazırki hesabatda 3-cü yerdə mövqe tutub. "Elektron Hökumət İnkişaf İndeksi" üzrə 2-ci yerin sahibi Avstraliya olub.
- Qeyd edək ki, reytinq cədvəlində xeyli irəliləyən ölkəmiz MDB regionunda əvvəlki hesabatdakı 7-ci mövqeyindən 4-cü mövqeyə yüksəlib.
- EGDI indeksinə görə MDB ölkələrinin müqayisəsi:

| № | Ölkənin adı | "E-government survey 2016" hesabatında mövqe | "E-government survey 2014" hesabatında mövqe | "E-government survey 2012" hesabatında mövqe |
|---|---|---|---|---|
| 1 | Qazaxıstan | 33 | 28 | 38 |
| 2 | Rusiya | 35 | 27 | 27 |
| 3 | Belarus | 49 | 55 | 61 |
| **4** | **Azərbaycan** | **56** | **68** | **96** |
| 5 | Gürcüstan | 61 | 56 | 72 |
| 6 | Ukrayna | 62 | 87 | 68 |
| 7 | Moldova | 65 | 66 | 69 |
| 8 | Özbəkistan | 80 | 100 | 91 |
| 9 | Ermənistan | 87 | 61 | 94 |
| 10 | Qırğızıstan | 97 | 101 | 99 |
| 11 | Türkmənistan | 140 | 128 | 126 |
| 12 | Tacikistan | 139 | 129 | 122 |

www.e-gov.az

Məlumat üçün bildirək ki, “Elektron Hökumət İnkişaf İndeksi”nin hesablanması zamanı **3** komponent əsas götürülür:

1. **Online xidmət** sub-indeksi,
2. **Telekommunikasiya İnfrastrukturu** sub-indeksi,
3. **İnsan Kapitalı** sub-indeksi.




BMT-nin sözügedən hesabatında göstərilən ikinci əsas indeksi “Elektron İştirak İndeksi”dir (E-Participation). Azərbaycan bu göstəriciyə görə dünya ölkələri arasında 30 pillə irəliləyərək 77-ci yerdən 47-ci yerə yüksəlib.

**Table 3.4. Countries that have advanced more than 25 positions in the 2016 EPI ranking**

| Country | Jumps | Ranking in 2016 | Ranking in 2014 |
|---|---|---|---|
| Saint Kitts and Nevis | 25 | 133 | 158 |
| Zambia | 25 | 118 | 143 |
| Austria | 26 | 14 | 40 |
| Solomon Islands | 26 | 146 | 172 |
| Angola | 28 | 101 | 129 |
| Guinea-Bissau | 29 | 157 | 186 |
| Azerbaijan | 30 | 47 | 77 |
| Suriname | 30 | 122 | 152 |
| Ethiopia | 31 | 91 | 122 |
| Liberia | 31 | 127 | 158 |

Azərbaycan həm də bu göstərici üzrə MDB ölkələri arasında əvvəlki 7-ci yerindən 2-ci yerə yüksəlmiş olub.

| № | Ölkənin adı | *“E-govrnment survey 2016” hesabatında mövqe* | *“E-govrnment survey 2014” hesabatında mövqe* | Mövqe dəyişikliyi |
|---|---|---|---|---|
| 1 | Rusiya | 32 | 30 | -2 |
| 1 | Ukrayna | 32 | 77 | +45 |
| 2 | **Azərbaycan** | **47** | **77** | **+30** |
| 2 | Özbəkistan | 47 | 71 | +24 |
| 3 | Moldova | 50 | 40 | - |
| 4 | Qırğızıstan | 67 | 81 | +14 |
| 4 | Qazaxıstan | 67 | 22 | -45 |
| 5 | Belarus | 76 | 55 | -21 |
| 5 | Gürcüstan | 76 | 49 | -27 |
| 6 | Ermənistan | 84 | 59 | -25 |

*“Elektron İştirak İndeksi”nin sub-göstəriciləri üzrə Azərbaycanın mövqeyi belədir:*




Qeyd edək ki, hesabatın müvafiq qiymətləndirməsində “Elektron İştirak İndeksi” üzrə dünya ölkələri arasında Birləşmiş Krallıq liderlik edir. 2-ci yeri iki ölkə - Yaponiya və Avstraliya arasında bölüşür. Əvvəlki hesabatda birinci olan Koreya isə bu dəfə 4-cü yerdə qərarlaşıb.

*Həmçinin məcmuədə “Elektron İştirak İndeksi” üzrə ən yaxşı performans göstərən top 50 ölkə arasında Azərbaycanın adı qeyd edilib. Bu indeks üzrə meyarlar e-informasiya, e-məsləhət, e-qərarvermə alt göstəricilər əsasında hesablanır.*

**Table 3.2. Top 50 performers in e-participation in 2016**

| Rank | Country | Rank | Country |
|---|---|---|---|
| 17 | Israel | 43 | Luxemburg |
| 17 | Morocco | 43 | Vietnam |
| 17 | Lithuania | 43 | Bulgaria |
| 17 | Montenegro | 47 | Malaysia |
| 17 | Serbia | 47 | Uzbekistan |
| 22 | Estonia | 47 | Azerbaijan |
| 22 | China | 50 | Portugal |

# Azərbaycan "Elektron hökumət" quruculuğunda böyük nailiyyətlər əldə edib




Bu mənada Birləşmiş Millətlər Təşkilatının "Elektron hökumət"in ikişafına dair tərtib etdiyi reytinq cədvəlində ölkəmizin aldığı yüksək qiymət böyük əhəmiyyət kəsb edir.

Belə ki, BMT-nin hazırladığı "Elektron Hökumət Sorğusu 2016" hesabatında Azərbaycan "Elektron Hökumətin İnkişaf İndeksi" üzrə əvvəlki mövqeyini 12 pillə artıraraq 193 ölkə arasında 68-ci yerdən 56-cı yerə yüksəlib. "Elektron İştirak İndeksi" üzrə ölkəmiz mövqeyini 30 pillə artıraraq 47-ci mövqedə qərarlaşıb.

"Elektron Hökumətin İnkişaf İndeksi"nin əsas meyarları "Elektron hökumət" portalının təqdim etdiyi elektron xidmətlərin istifadə baxımından daha rahat və sadə interfeysli olmaqla yanaşı, onların funksionallıq baxımından istifadəçi yönümlü olmasıdır.

Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzinin "Elektron hökumət" portalının koordinatoru Cəmşid Naxçıvanski bildirib ki, bu sahədə Azərbaycan xeyli nailiyyət əldə edib. Belə ki, "Elektron hökumət"dən istifadə indeksi elektron xidmətlərin istifadəçilər tərəfindən populyarlığı ilə ölçülür ki, 2016-cı ilin ilk yarımili ərzində "Elektron hökumət" portalına müraciətlərin sayı 8 milyondan çox olub. Bu da portal istifadəyə verilən tarixdən bu günə qədər olan müraciət sayının təqribən 30 faizidir.

Cəmşid Naxçıvanski həmçinin qeyd edib ki, "Elektron hökumət" portalının operatoru olaraq Rabitə və Yüksək Texnologiyalar Nazirliyi dövlət və özəl qurumlarla sıx əməkdaşlıq edir və vətəndaş yönümlü elektron xidmətlərin yaradılmasında mühüm rol oynayır.

"Misal olaraq vətəndaşlar tərəfindən ən çox istifadə olunan elektron xidmətlər arasında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron xidmətlərini göstərmək olar. Həmçinin Dövlət Gömrük Komitəsinin təqdim etdiyi "Elektron Gömrük Bəyannaməsi haqqında məlumatların əldə edilməsi" elektron xidmətinə də daha çox müraciət edilir. Son aylar ərzində bu xidmətlərə bir milyona yaxın müraciət qeydə alınıb. Hal-hazırda portala 41 mərkəzi icra hakimiyyəti orqanının təqdim etdiyi 414 elektron xidmət inteqrasiya olunub. Əhalini tam avtomatlaşdırılmış elektron xidmətlərlə təmin etmək məqsədilə portal gündən-günə təkmilləşdirilərək sadələşdirilir ki, bu da istifadəçi sayının artmasına səbəb olur".

"Elektron hökumət" portalı virtual məkanın, müasir texnologiyaların imkanlarından, dövlət orqanlarında informasiyalaşdırmanın yüksək səviyyəsindən istifadə edərək ölkə vətəndaşlarına göstərilən xidmətlərin keyfiyyətcə yeni formada təqdim edilməsinə xidmət edir və vətəndaş, dövlət və özəl sektor arasında olan fəaliyyəti əlaqələndirən vacib alət rolunu oynayır.

Eyni zamanda "Elektron hökumət" portalı qurumlar arasında elektron şəkildə qarşılıqlı əmək fəaliyyətinin təşkil olunması sayəsində vətəndaşlardan tələb olunan sənədlərin azaldılmasına, bəzi bürokratik əngəllərin aradan qaldırılmasına xidmət edən bir mexanizmdir. Bunlar vətəndaşların rifahının yüksəldilməsi istiqamətində ölkədə aparılan siyasətin və yaradılmış münbit şəraitin nəticəsidir.

# 2016-cı ilin 3 rübü ərzində "Elektron hökumət" portalına müraciət edənlərin sayı 13 562 257 olub

***Bu gün ölkəmizdə elektron xidmətlərin keyfiyyətinin artırılması və əhatə dairəsinin genişləndirilməsi sahəsində ardıcıl tədbirlər həyata keçirilir. Bunun nəticəsidir ki, vətəndaşların əksəriyyəti sosial-iqtisadi həyatın bir çox sahələrini əhatə edən xidmətlərdən elektron şəkildə faydalanmağa üstünlük verirlər.***

Bütün bu xidmətlərin bir mərkəzdə - "Elektron hökumət" portalında cəmləşməsi isə onların işini daha da asanlaşdırır. İstifadəçi rahatlığını və məmnunluğunu təmin etmək üçün portalda təqdim edilən xidmətlərin sayı və çeşidi fasiləsiz olaraq yenilənir.

Hazırda portalda 42 sahə üzrə elektron xidmət vətəndaşlar üçün açıqdır. Portalda real vaxt rejimində dəyişən sayğac vasitəsi ilə elektron xidmətlərə müraciət sayını, daha çox istifadə edilən xidmətlərin statistikasını müəyyən etmək mümkündür.

Statistikaya əsasən, ikinci rüb ərzində vətəndaşlar portalda yer almış 42 sahə üzrə təqdim olunan 372 elektron xidmətə müraciət edib.

Beləliklə, cari ilin 3 rübü ərzində ümumilikdə müraciətlərin sayı 13 562 257 təşkil edib.

www.e-gov.az

# Ünvan Reyestri İnformasiya Sistemi qurumlarla informasiya mübadiləsinə hazırdır

"Azərbaycan Respublikasında Ünvan Reyestrinin fəaliyyətini təmin edən informasiya sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 1 noyabr 2013-cü il tarixli, 18 nömrəli Fərmanında əks olunan tapşırıqların təmin olunması məqsədilə Əmlak Məsələləri Dövlət Komitəsinin Ünvan Reyestri İnformasiya Sistemi (ÜRİS) "Elektron hökumət" portalına inteqrasiya edilib.



Bakı şəhərinin rayonlarının məkan məlumatları: inzibati ərazi vahidləri, poçt indeksləri, bina poliqonları, torpaq parselləri, yol-küçə şəbəkəsinin rəqəmsal xəritələri Ünvan Reyestri İnformasiya Sisteminə inteqrasiya olunub. ÜRİS-nin mətn və qrafik bazalarına daxil edilmiş qrafiki məlumatlara əsasən, Bakı şəhərində 175 küçə üzrə daşınmaz əmlak obyektlərinə 35000-dən çox giriş və 70000-dən çox daxili ünvan təyin edilərək sistemə daxil edilib. Bu informasiya sistemi təcili tibbi yardım, fövqəladə hallar, poçt və sair xidmətlərin fəaliyyətində operativliyi, eləcə də lazımi ünvanların axtarışında vaxt itkisinin qarşısının alınmasını təmin edəcək.

Qeyd edək ki, bu sistemin yaradılmasında başlıca məqsəd Ünvan Reyestri İnformasiya Sistemi ilə digər dövlət orqanlarının malik olduqları informasiya sistemlərinin inteqrasiyasının müəyyənləşdirilməsi və qarşılıqlı informasiya mübadiləsinin həyata keçirilməsidir.

Ünvan Reyestri İnformasiya Sistemində daşınmaz əmlak obyektlərinin ünvanları barədə toplanmış məlumatlardan "Elektron hökumət" portalına inteqrasiya olunmuş digər qurumlarda istifadə edə bilərlər. Bu halda Ünvan Reyestri İnformasiya Sisteminin avtomatlaşdırılmış informasiya təminatından səmərəli və praktiki istifadəsi ilə yanaşı, informasiya təhlükəsizliyi də təmin ediləcək.

# "Elektron hökumət" portalının "Android" üzərindən mobil versiyası istifadəyə verilib

## "Android" əməliyyat sistemində çalışan mobil cihaz istifadəçiləri də "Elektron hökumət" portalının mobil versiyasından faydalana biləcəklər

***Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin 7, Daxili İşlər Nazirliyinin 1, Ədliyyə Nazirliyinin 1, Səhiyyə Nazirliyinin 3 elektron xidmətini, həmçinin, 6 adda arayışı artıq mobil cihazınızdan əldə edin!***




Portalın mobil versiyası xüsusi olaraq portativ qurğular üçün optimallaşdırılıb. Bu da tətbiqdən istifadə rahatlığını təmin edir, həmçinin, internet trafikə qənaət olunmasına səbəb olur.

"Android" əməliyyat sistemində çalışan mobil cihaz istifadəçiləri ilk vaxtlar "Elektron hökumət" portalı üzərindən təqdim olunan 414 elektron xidmətdən 18-nə öz mobil cihazları vasitəsilə müraciət edə biləcək. Mobil əlavəyə giriş e-imza kartı, istifadəçi adı/şifrə, mobil İD vasitəsilə mümkündür.

Həmçinin, "Elektron hökumət" portalının mobil əlavəsi vasitəsilə vətəndaşlar kommunal, ipoteka, Dövlət Yol Polisi tərəfindən tətbiq olunan cərimələr barədə real vaxt rejimində xəbər tuta biləcəklər. Tətbiqin "istifadəçi məlumatları", "favorit elektron xidmətlər" və "son yeniliklər" kimi funksionallıqları var.

Mobil tətbiq vasitəsilə aidiyyəti suallarla bağlı "157 Zəng Mərkəzi"nə müraciət etmək mümkündür.

Artıq bir çox xidmətlər "Elektron hökumət" portalının mobil əlavəsi vasitəsilə vətəndaşlara daha rahat və yaxındır.

Nəzərinizə çatdıraq ki, sözügedən tətbiqi "Play Store"da "Elektron hökumət" portalı yazıb axtarış etməklə mobil qurğunuza yükləyə bilərsiniz.

# "Apelyasiya şuralarına elektron şikayət qəbulu" xidməti "www.e-gov.az" portalına inteqrasiya olundu




***Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli Fərmanı ilə yaradılan Apelyasiya Şurası üzrə xidmətlər Rabitə və Yüksək Texnologiyalar Nazirliyi (RYTN) Məlumat Hesablama Mərkəzi (MHM) tərəfindən elektronlaşdırılıb. Artıq "Apelyasiya şuralarına elektron şikayət qəbulu" xidməti "Elektron hökumət" portalına inteqrasiya olunub.***

"Elektron hökumət" portalının operatoru – Rabitə və Yüksək Texnologiyalar Nazirliyi portala inteqrasiya edilən bu yeni elektron xidməti ictimaiyyətə təqdim edib.

Təqdimatda çıxış edən Azərbaycan Respublikasının Prezidenti yanında Apelyasiya Şurası katibliyinin rəhbəri Yaşar İbrahimov RYTN tərəfindən apelyasiya şuralarına şikayətlərin qəbulu prosesinin elektronlaşdırılaraq "Elektron hökumət" portalına (e-gov.az) inteqrasiya olunmasını yüksək qiymətləndirib. O, bu sistemin sahibkarların müraciət imkanının daha da asanlaşdırılmasına xidmət etdiyini vurğulayıb.

Sonra Məlumat Hesablama Mərkəzinin direktoru Elnar Əsədov çıxış edərək ilk növbədə "Elektron hökumət" portalının uğurlu fəaliyyəti haqqında məlumat verib. Onun sözlərinə görə, hazırda portala müxtəlif qurumlardan 414 elektron xidmət inteqrasiya edilib, 8 milyonu 2016-cı ilin ilk 6 ayında olmaqla, ümumilikdə 32 milyondan artıq müraciət qeydə alınıb.

Elnar Əsədov "Apelyasiya şuralarına elektron şikayət qəbulu" elektron xidmətinin əhəmiyyətindən danışaraq bu sistemə Prezident yanında Apelyasiya Şurası da daxil olmaqla 118 qurumun qoşulacağını diqqətə çatdırıb.

Daha sonra nazirliyin mütəxəssisləri tərəfindən Elektron Hökumət Təlim-Tədris Mərkəzində keçirilən tədbirdə mərkəzi və yerli icra hakimiyyəti orqanlarının mütəxəssis nümayəndələrinə elektron xidmətlə bağlı təlim keçirilib.

"Apelyasiya şuralarına elektron şikayət qəbulu" xidməti sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin müraciətlərinin elektron şəkildə Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarına operativ çatdırılmasına xidmət edir.

Sahibkarlar üçün çox böyük əhəmiyyət daşıyan xidmət, eyni zamanda şikayətçilərin dövlət orqanlarına müraciətinin daha da asanlaşmasına, sənədlərin elektron şəkildə təqdim edilməsinə, müraciətlərə baxılma barədə məlumatların əldə edilməsinə imkan verəcək. Adıçəkilən xidmətdən istifadə edən vətəndaş, həmçinin, göndərmiş olduğu müraciətin icra vəziyyəti barədə məlumatı izləmək və verilən qərarı elektron formada əldə edə bilmək imkanı qazanacaq.

# "Apelyasiya Şuralarına elektron şikayət qəbulu" üzrə təlimlər keçirilib

**Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Məlumat Hesablama Mərkəzinin mütəxəssisləri Elektron Hökumət Təlim-Tədris Mərkəzində 4 regional mərkəz üzrə (Şirvan, Lənkəran, Qəbələ, Qusar) yerli icra hakimiyyəti orqanlarının nümayəndələrinə "Apelyasiya şuralarına elektron şikayət qəbulu" elektron xidmətindən və idarəetmə panelindən istifadə qaydaları üzrə onlayn təlim keçirib.**

Təlimdə bu elektron xidmətin üstünlükləri barədə ətraflı məlumat verilib.

Elektron Hökumət Təlim-Tədris Mərkəzi ilə regionlarda yerləşən mərkəzlər arasında real vaxt rejimində təşkil olunan təlimdə Şirvan şəhəri üzrə Ağsu, İmişli, Qobustan, Zərdab, Neftçala, Sabirabad, Salyan, Hacıqabul, Şamaxı, Qubadlı,




Çəbrayıl, Füzuli, Saatlı, Lənkəran üzrə Astara, Biləsuvar, Yardımlı, Lerik, Masallı, Cəlilabad, Qəbələ üzrə Balakən, Zaqatala İsmayıllı, Qusar rayonu üzrə isə Quba, Siyəzən, Xaçmaz, Xızı və Şabran rayonunun yerli icra hakimiyyəti orqanlarının nümayəndələri iştirak ediblər.

Həmçinin mərkəzin mütəxəssisləri Mingəçevir və Gəncə şəhərlərində də təlim keçiblər.

Mingəçevir şəhərində keçirilmiş və regional xarakter daşıyan tədbirdə Mingəçevir də daxil olmaqla, Ağdam, Yevlax, Bərdə, Tərtər, Ağcabədi, Xocalı, Laçın, Goranboy, Ağdaş, Göyçay, Ucar, Oğuz, Şəki, Qax və Naftalan şəhərlərindən olan nümayəndələr iştirak ediblər.

Gəncə şəhərində keçirilmiş təlimdə isə Gəncə də daxil olmaqla Ağstafa, Qazax, Daşkəsən, Gədəbəy, Göygöl, Tovuz, Şəmkir, Samux, və Beyləqan şəhərlərindən olan nümayəndələr iştirak ediblər.






# Azərbaycan-Koreya əməkdaşlıq forumu keçirildi

**Avqust ayının 19-da Bakıda Dövlət İdarəçiliyi üzrə Azərbaycan-Koreya əməkdaşlıq forumu keçirilib. Forumda Koreya Respublikasının daxili işlər naziri Honq Yun-Şik, Koreya Respublikasının Azərbaycan Respublikasındakı səfiri Kim Çan Qyu, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri İnam Kərimov, Rabitə və Yüksək Texnologiyalar Nazliyinin Məlumat Hesablama Mərkəzinin direktoru Elnar Əsədov və digər səlahiyyətli nümayəndələr iştirak ediblər.**




Forumu giriş sözü ilə açan Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri İnam Kərimov “Elektron hökumət” portalının uğurlu fəaliyyətini vurğulayaraq qeyd edib ki, “Elektron hökumət” portalında olan elektron xidmətlərin istifadə dairəsi genişləndikcə, portaldan istifadə əmsalı da artır. Məruzəçi, həmçinin qeyd edib ki, təsadüfi deyil ki, BMT-nin "Elektron hökumət sorğusu 2016” hesabatına əsasən Azərbaycan "Elektron Hökumətin İnkişaf İndeksi" üzrə əvvəlki mövqeyini 12 pillə artıraraq 68-ci yerdən 56-cı yerə, "Elektron-İştirak İndeksi" üzrə isə öz mövqeyini 30 pillə artıraraq 47-ci yerə yüksəlib.

Tədbirdə çıxış edən Koreya Respublikasının Azərbaycandakı səfiri Kim Çan Qyu Azərbaycanın inkişaf etmiş “Elektron hökumət” sistemlərindən birini yaratdığını və bu sahədə gördüyü işlərlə keçmiş SSRİ-nin digər dövlətlərindən fərqləndiyini söylədi və qeyd etdi ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə bu sistemi dünyada tətbiq etmək üçün ən yüksək səviyyədə addımlar atılır".

Daha sonra Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin operatoru olduğu “Elektron hökumət” portalının koordinatoru Cəmşid Naxçıvanski “Elektron hökumət” sistemi üzrə təqdimatla çıxış edib. Məruzəçi “Elektron hökumət” portalının inkişaf mərhələləri, statistik məlumatlar, qarşıya qoyulan məqsədlər və gələcək planlar barədə də forum iştirakçılarına məlumat verib.

Tədbirdə, həmçinin Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Koreyanın Daxili İşlər Nazirliyi arasında “Elektron hökumət” və dövlət xidmətlərinin göstərilməsi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb.

# Koreya ilə İKT sahəsində əməkdaşlıq müzakirə olunub






***Rabitə və Yüksək Texnologiyalar Nazirliyində Koreya Respublikasının daxili işlər naziri Hong Yun-Şik və onun başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.***

Görüşdə İKT sahəsində əməkdaşlıq əlaqələrinin genişləndirilməsi, “Elektron hökumət” quruculuğu istiqamətində qarşılıqlı təcrübə mübadiləsi, nüvə, peyk sənayesi, poçt rabitəsi sahələrində gələcək əməkdaşlıq istiqamətləri müzakirə olunub.

Ölkələrimiz arasında siyasi-iqtisadi münasibətlərin inkişafından söhbət açan rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə ikitərəfli əməkdaşlığın bütün sahələrdə, o cümlədən rabitə və yüksək texnologiyalar sahəsində də uğurla davam etdiyini bildirib. R.Quluzadə Koreyanın İKT sahəsində əldə etdiyi nailiyyətlərin və uğurlu təcrübənin Azərbaycan üçün faydalı ola biləcəyini qeyd edib.

Koreya şirkətlərinin Azərbaycanda həyata keçirilən İKT layihələrində iştirakından danışan nazir ölkəmizin bu əməkdaşlığın daha da genişləndirilməsində maraqlı olduğunu vurğulayıb. Nazir bu baxımdan Bakıda keçiriləcək “Bakutel-2016” beynəlxalq informasiya texnologiyaları sərgi-konfransının əlverişli platforma olduğunu bildirərək, Koreya tərəfini sərgidə iştiraka dəvət edib.

Səmimi qəbula görə təşəkkür edən Hong Yun-Şik öz növbəsində Koreya-Azərbaycan münasibətlərində qarşılıqlı əməkdaşlığın bütün istiqamətlərdə, o cümlədən İKT, rabitə və yüksək texnologiyalar sahəsində yüksək səviyyədə olduğunu qeyd edib.

O bildirib ki, Azərbaycanda hazırda “Elektron hökumət” quruculuğu istiqamətində uğurlu işlər həyata keçirilir. Nazir son 8 il ərzində ölkəsinin BMT-nin “Elektron hökumətin inkişaf indeksi” üzrə tərtib etdiyi hesabatda liderliyini qeyd edərək, bu istiqamətdə Azərbaycana istənilən dəstəyin göstərilməsinə hazır olduqlarını bildirib. O, həmçinin BMT-nin hesabatında Azərbaycanın mövqeyinin xeyli yüksəlməsinə görə təbrik edərək, bu uğuru Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin həyata keçirdiyi səmərəli işlərin nəticəsi kimi qiymətləndirib.

Koreyalı nazir İKT sahəsində daha yüksək nəticələrin əldə edilməsi üçün azərbaycanlı kadrlara treninqlərin keçirilməsini, qarşılıqlı təcrübə mübadiləsinin genişləndirilməsini təklif edib.

Rabitə və Yüksək Texnologiyalar Nazirliyi üçün “Elektron hökumət” təlim-tədris mərkəzinin yaradılması və texniki təchizatında göstərdiyi dəstəyə görə Koreya dövlətinə təşəkkürünü bildirən R.Quluzadə bundan sonra da əlaqələrin yüksələn xətt üzrə inkişaf edəcəyinə əminliyini ifadə edib.

www.e-gov.az

# Koreyalı mütəxəssislərlə "Elektron hökumət" sahəsində gələcək əməkdaşlıq müzakirə olunub

23 sentyabr tarixində Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzində Koreya Respublikasının Sangmyung Universitetinin professoru Hung Kuk Parkın başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib. Görüşdə koreyalı mütəxəssislərlə "Elektron hökumət" sahəsində gələcək əməkdaşlıq perspektivləri, qarşılıqlı təcrübə mübadiləsi barədə müzakirələr aparılıb.

Koreyanın Sangmyung Universitetinin mütəxəssislərindən ibarət nümayəndə heyəti digər ölkələrdəki uğurlu təcrübələrdən bəhs edərək, Azərbaycanda yüksək texnologiyalar sektorunun inkişaf vəziyyətini yüksək qiymətləndiriblər. Professor Hung Kuk Park, Azərbaycanın Birləşmiş Millətlər Təşkilatının "Elektron Hökumətin İnkişaf İndeksi" üzrə reytinqində 56-cı pillədə qərarlaşmasını bu inkişafın göstəricisi olduğunu bildirib.

Nümayəndə heyətinin rəhbəri ölkəmizlə sahə üzrə bütün istiqamətlərdə iş birliyinə hazır olduqlarını vurğulayıb. O, Koreyanın orta və kiçik şirkətlərinin bu əməkdaşlığa cəlb edilməsinin mümkünlüyünü də qeyd edib.



Ölkəmizdə sahə üzrə əldə olunan nailiyyətlərdən söz açan Məlumat Hesablama Mərkəzinin direktoru Elnar Əsədov ikitərəfli əməkdaşlıqdan məmnunluğunu ifadə edib.

O, qonaqlarla "Elektron hökumət", "elektron imza" infrastrukturu, elektron xidmətlərin inkişaf etdirilməsi və digər layihələrlə bağlı geniş fikir mübadiləsi aparıb.

# Kiçik və iri biznes sahiblərinə xoş xəbər

Daha bir arayışı, "Su təchizatı və tullantı sularının axıdılması xidmətləri"ndən istifadəyə görə borcun olmaması haqqında arayışı elektron şəkildə əldə edə bilərsiniz.

Sözügedən arayışı "Elektron hökumət" portalında "Azərsu" ASC-nin elektron xidmətləri arasından əldə etmək mümkündür. Portala istifadəçi adı/şifrə və ya elektron imza kartı vasitəsilə daxil olub "Bütün xidmətlər" bölməsində "Azərsu" ASC-nin xidmətləri arasından "Su təchizatı və tullantı sularının axıdılması xidmətləri"ndən istifadəyə görə borcun olmaması haqqında arayışı seçin. Abonent kodunu daxil edərək müvafiq elektron formanı doldurun. Arayış üçün müraciət edən şəxs aşağıda əks olunan məlumatları daxil etməlidir:

*- Şəxsiyyət vəsiqəsinin FİN kodu;*
*- Telefon nömrəsi;*
*- Elektron poçt ünvan.*

**Müraciətə,**
*- obyekt sizin mülkiyyətinizdədirsə,*
*bunu təsdiq edən sənədin surətini;*
*- obyekti icarəyə götürmüsünüzsə*
*icarə müqaviləsinin surətini*
*əlavə edib, prosesi tamamlayın.*

Müraciət bir neçə gün ərzində "Azərsu" ASC tərəfindən dəyərləndirilir, nəticə elektron poçt vasitəsilə vətəndaşa göndərilir.




Bu müddət ərzində vətəndaş müraciətin vəziyyətini izləyə də bilir. Belə ki, müvafiq müraciətin mərhələli statusu xidmətin "göndərilən müraciət" bölməsində "baxılır", "təsdiqləndi" kimi göstərilir. Müraciət təsdiqləndikdə eyni bölmədə "çap edin" düyməsi aktiv olur.

Hüquqi sənəd olan arayışlar subyekt barədə müvafiq informasiyanı təsdiqləmə vasitəsi kimi bir çox fəaliyyət sahələrində tətbiq olunur. Bu gün "Elektron hökumət" portalı vasitəsilə təqdim olunan 13 adda arayış bütün vətəndaşların, xüsusən də biznes sahiblərinin işini sadələşdirir.

# "Elektron hökumət" portalında daha bir yenilik

## Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinə (ombudsman) "Elektron hökumət" portalı üzərindən müraciət etmək imkanı yaradılıb

Belə ki, hər bir istifadəçi, o cümlədən Azərbaycan Respublikası vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, habelə hüquqi şəxslər təklif, ərizə və şikayətləri ilə portal üzərindən Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinə (ombudsman) elektron formada müraciət göndərə biləcəklər.

Bunun üçün portalda "İnsan Hüquqları üzrə Müvəkkil - Ombudsman" təsisatı tərəfindən təqdim edilən "Ombudsman aparatına elektron müraciət" xidməti seçilir. Açılan pəncərədə istifadəçi qaydaları ilə tanış olub "növbəti" düyməsini seçmək lazımdır.

Açılan səhifədə istifadəçi vətəndaşlıq statusunu məsələn "Azərbaycan Respublikasının vətəndaşı" seçərək, şəxsiyyət vəsiqəsinin nömrəsi və FİN kodunu qeyd edib, "növbəti" düyməsini seçir.

Yeni səhifədə istifadəçi özü haqqında məlumatı qeyd edərək, müraciətin növünü, ilkin yoxsa təkrar müraciət olduğunu seçir, müraciətin mətnini qeyd edib, göndər düyməsinin üzərinə vurmaqla şikayət, ərizə və təklifini Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinə (ombudsman) göndərmiş olur.



Qeyd edək ki, xidmət qeydiyyatsız olsa da, göndərilmiş müraciətin tarixçəsinə baxmaq üçün təqdim olunan autentifikasiya vasitələrinin birindən istifadə edərək portaldan qeydiyyatdan keçmək tələb olunur.

# Dövlət Miqrasiya Xidmətindən yeni elektron xidmət

Məlum olduğu kimi, Azərbaycan Respublikasında 10 gündən artıq müvəqqəti qalmaq istəyən əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər olduğu yer üzrə qeydiyyata alınmalıdırlar. Bu proses Dövlət Miqrasiya Xidmətinin təqdim etdiyi "Olduğu yer üzrə qeydiyyata alınması üçün müraciətin və sənədin qəbulu" adlı elektron xidmət vasitəsi ilə daha asan həyata keçirilir. Qeyd olunan elektron xidmət artıq "Elektron hökumət" portalına da inteqrasiya edilib.

Hətta xidmətdən istifadə etmək üçün portalda qeydiyyatdan keçmək tələb olunmur. Sadəcə www.e-gov.az elektron ünvanına daxil olub, elektron xidmətlər bölməsində Dövlət Miqrasiya Xidmətinin "Olduğu yer üzrə qeydiyyata alınması üçün müraciətin və sənədin qəbulu" adlı xidmətini seçmək lazımdır.

Xidməti seçdikdən sonra fiziki, yaxud hüquqi şəxs kimi qeydiyyatdan keçmək mümkündür. Fiziki şəxs kimi qeydiyyatdan keçmək istəyən vətəndaş açılan səhifədə sənəd məlumatlarını qeyd edir, şəxsiyyət vəsiqəsinin foto surətini yükləyir və barəsində ilkin məlumatları müvafiq xanalara doldurur.

Əcnəbinin qeydiyyata alınacağı ünvan məlumatından sonra istifadəçi ekranda görünən təhlükəsizlik simvolunu və rəqəmləri daxil edib təsdiqlə düyməsini sıxmaqla qeydiyyatdan keçmiş olur.

Qeydiyyatı tamamlamaq üçün isə vətəndaş elektron poçt ünvanına daxil olub linki təsdiqləyir və növbəti pəncərədə istədiyi şifrəni daxil edib təsdiqləməklə sistemə giriş əldə edir. Qeyd edək ki, vətəndaş sistemə bir dəfə giriş əldə etdikdən sonra, həmin şifrə ilə mütəmadi olaraq sistemdən istifadə edə biləcək.



Beləliklə, xidmət seçildikdən sonra açılan pəncərədə elektron poçt ünvanını və şifrəni daxil edən vətəndaş sistemə daxil olur.

Sonra əcnəbinin qeydiyyata alınacağı "ünvan" düyməsini seçərək ünvanının təsdiqlənməsini gözləyir.

Ünvan aktiv olduqdan sonra əməliyyat düyməsini seçərək yeni səhifədə tələb olunan suallar cavablandırılır və təsdiqlə düyməsi seçilir.

Nəticədə vətəndaş qeydiyyata alınır və sorğunun qəbul edilməsi ilə bağlı elektron poçtuna bir iş günü ərzində bildiriş göndərilir.

Qeyd edək ki, xidmət 3 dildə - Azərbaycan, ingilis və rus dilində təqdim edilir. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin olduğu yer üzrə hüquqi şəxslər tərəfindən qeydiyyatı isə fiziki şəxslərin həyata keçirdiyi qaydada aparılır.

www.e-gov.az

# "Sağlamlıq – 2016" rabitə işçilərinin Respublika Spartakiadasına start verildi




Azərbaycan Respublikasında rabitə və yüksək texnologiyalar sahəsi işçilərinin peşə bayramının və ölkəmizdə telefon rabitəsinin yaradılmasının 135 illiyi ilə əlaqədar keçirilən "Sağlamlıq – 2016" rabitə işçilərinin Respublika Spartakiadasına start verildi. Sentyabrın 24-də keçirilmiş mərasimdə rabitə və yüksək texnologiyalar nazirinin birinci müavini Əli Abdullayev, gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədr müavini Aqil Dadaşov, rabitə birlik müəssisələrinin nümayəndələri, idman cəmiyyətlərinin təmsilçiləri iştirak etmişlər.

Spartakiadanı açıq elan edən rabitə və yüksək texnologiyalar nazirinin birinci müavini Əli Abdullayev ölkəmizdə idmanın dinamik inkişafından, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin idmana qayğısından, bu diqqət və qayğının təzahürü kimi idmançılarımızın beynəlxalq arenalarda göstərdikləri uğurlu nəticələrdən bəhs etmişdir. O, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin himayəsi ilə qadınlardan ibarət "Telekom" voleybol klubunun 2017-ci ildə Avropa çempionatının qrup mərhələsinə vəsiqə qazanmasını idman ictimaiyyətinin uğuru kimi qeyd etmişdir.

Ə. Abdullayev spartakiadanın keçirilməsində əsas məqsədin rabitəçilərin sağlamlığının möhkəmləndirilməsi, onları bədən tərbiyəsi və idman məşğələlərinə cəlb etməklə asudə vaxtlarının səmərəli keçirilməsini təmin etmək, eləcə də ən yaxşı idman kollektivlərini müəyyən etməkdən ibarət olduğunu bildirmişdir.

Digər çıxış edənlər ölkəmizin son illər idman sahəsində ciddi uğurlara imza atdığını qeyd edərək, bu cür spartakiadaların ümumi inkişafa önəmli töhfələr verdiyini vurğulamışlar.

Qeyd edək ki, idmanın 9 növü (atletika, voleybol, stolüstü tennis, kəndirdartma, mini-futbol, şahmat, nərd, dama və güllə atıcılığı) üzrə keçirilən yarışlarda Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində olan qurumları təmsil edən 14 komanda, 500-dən artıq idmançı iştirak edəcəkdir.

# "Elektron hökumət" portalında mövcud olan elektron arayışların 9 ay ərzində istifadə dinamikası

"Elektron hökumət" portalının təqdim etdiyi elektron arayışlardan 2016-cı ilin 9 ayı ərzində **327,453** dəfə istifadə edilib

Xatırladaq ki, portal istifadəçilərinə 13 adda elektron arayış təqdim edir.

Ən çox istifadə olunan elektron arayış Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təqdim etdiyi "İş yerinə dair arayış"dır ki, cari ilin oktyabr ayının 1-dək **160,644** dəfə istifadə edilib. Qeyd olunan arayışın alınması üçün vətəndaşın işlədiyi müəssisənin aidiyyəti şəxslərinə müraciət etməsinə, bunun üçün vaxt və zəhmət çəkməsinə ehtiyac qalmır. Arayışda işəgötürən barədə məlumatlar, habelə onun əlaqə nömrəsi, əmək müqaviləsinin bağlandığı tarix, işçinin şəxsi məlumatları və s. əksini tapır.

Ən çox tələb olunan digər arayış növü "Vətəndaşa aid fərdi məlumatlar üzrə arayış"dır ki, kredit almaq və müxtəlif məzmunlu fərdi məlumatlar üzrə elektron arayış təqdim etmək imkanını verən bu arayışlardan analoji vaxt ərzində **50,080** dəfə istifadə edilib. "Yaşayış yeri haqqında arayış"dan isə **23,448** dəfə istifadə edilib.

Gənclərin tez-tez müraciət etdiyi "Diplom haqqında arayış"dan bu müddət ərzində **20,092** dəfə, "Şəxsiyyət vəsiqəsi məlumatları üzrə arayış"dan isə **19,801** dəfə istifadə edilib.

Qeyd edək ki, "Elektron hökumət" portalında autenfikasiyadan keçən hər bir vətəndaş müvafiq e-xidməti seçdikdən sonra portal tərəfindən avtomatik olaraq formalaşdırılan arayışı tələb olunan təşkilata elektron şəkildə göndərmək, yaxud çap edərək təqdim etmək imkanına malikdir.

Digər tərəfdən, arayışın təqdim edildiyi qurumlar onun üzərindəki ştrix-koddan istifadə etməklə "Elektron hökumət" portalında bu sənədin həqiqiliyini, oradakı məlumatların düzgünlüyünü yoxlaya bilirlər.

# "Elektron imza"dan istifadə daha da asanlaşdı





Sentyabr ayının 20-də Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzində "Elektron imza" sertifikat daşıyıcılarının yeni növü - **USB token**lərin geniş ictimaiyyətə tanıdılması ilə bağlı tədbir keçirilib.

Tədbirdə USB tokenlərin istifadəsini əyani şəkildə göstərən və onların üstünlükləri barədə jurnalistlərə ətraflı məlumat verən Milli Sertifikat Xidmətləri Mərkəzinin müdiri Arif Mayılov yeni daşıyıcıların əhalinin büdcəsinə qənaət edəcəyi ilə yanaşı, onların istifadəsi və daşınması baxımından daha rahat olmasını qeyd edib. Eyni zamanda USB tokenlərin elektron imza açarlarının təhlükəsiz saxlanılmasına xidmət edəcəyini xüsusilə vurğulayıb.

İnformasiya təhlükəsizliyi və istifadəçi rahatlığı üçün nəzərdə tutulmuş, etibarlılıq müddəti 3 il olan bu tokenlər həm də elektron xidmətlərdən rahat istifadə imkanı yaradacaq.

İstənilən bank xidmətlərində, gömrük və vergi bəyannamələrinin doldurulmasında müştəri və eləcə də, sahibkar öz mobil qurğusundan, yaxud kompüterindən istifadə edərək USB tokenlərlə çox asanlıqla əməliyyat apara bilər.

USB tokenləri vətəndaşların, dövlət qurumları əməkdaşlarının, hüquqi şəxslərin autentifikasiya və "elektron imza" kartı məlumatlarının unikal daşıyıcısı hesab etmək olar.

Əvvəllər "elektron imza"dan istifadə etmək üçün "elektron imza" kartı və eyni zamanda kart-oxuyucu almaq lazım gəlirdisə, indi sadəcə bir USB token əldə etmək kifayətdir. Belə ki, "Elektron imza" kartını 18 manata alan vətəndaş, əlavə olaraq kart-oxuyucu üçün 13 manat ödəniş etməli olduğu halda, artıq USB tokeni 18 manata əldə etməklə "Elektron imza"nın bütün funksiyalarından yararlana bilər.

Qeyd edək ki, kart oxucuya ehtiyac olmadan USB tokenlərin qiyməti əhali üçün 18 AZN, sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər üçün 36 manat, hüquqi şəxslər üçün 72 AZN, dövlət qulluqçuları üçün isə 58 AZN-dir.

Yeni daşıyıcı olan USB tokenləri Milli Sertifikat Xidməti Mərkəzinin qeydiyyat mərkəzlərinə yaxınlaşaraq, "elektron imza" saytına müraciət etməklə, həmçinin "Elektron hökumət" portalı vasitəsilə də onlayn sifariş yolu ilə əldə etmək mümkündür.

Xatırladaq ki, "Elektron imza" kartlarından 2012-ci ildən etibarən dövlət idarəçiliyi sahəsində geniş istifadə olunur.

# "Elektron imza" sertifikatlarının sayı 97 mini ötdü

## 2016-cı ilin 9 ayı ərzində "e-imza" sertifikatlarından nə qədər istifadə olunub?

Bildiyimiz kimi, "elektron imza" kartı virtual mühit istifadəçisinin şəxsiyyətini müəyyənləşdirən vasitə, təsdiqedici komponentdir. O, elektron sistemdə imzanın daşıdığı bütün funksiyaları yerinə yetirən, göndərilmiş elektron məlumatı kodlaşdıran və göndərəni təyin edən ədədi koddur.

Elektron sənəd mübadiləsinin təsdiqləyici elementi kimi "elektron imza" virtual məkanda prosesin təhlükəsiz və çevik icrasını təmin edir. Məhz bu səbəbdən ondan istifadə bu gün yetərincə aktualdır və ümumən "e-imza" istifadəçilərinin sayı artmaqda davam edir.

Elektron imza sertifikatlarının istifadəyə verildiyi gündən cari ilin 1 oktyabr tarixinədək olan statistikaya əsasən, dövlət qurumları üzrə 64008, fiziki şəxslər üzrə 16590, hüquqi şəxslər üzrə isə 16526 olmaqla, ümumilikdə 97124 "elektron imza" sertifikatı Milli Sertifikat Xidmətləri Mərkəzi tərəfindən istifadəyə verilib.

Məlumat üçün bildirək ki, 2016-cı ilin 9 ayı ərzində istifadəyə verilən "elektron imza" sertifikatının ümumi sayı 19892 təşkil edib. Onlardan dövlət qurumlarının payına 16470, fiziki şəxslərin payına 772, hüquqi şəxslərin payına isə 2650 "elektron imza" sertifikatı düşüb.



www.e-gov.az

# 81 dövlət informasiya ehtiyatı və 172 fərdi məlumatın informasiya sistemi reyestrlərdə dövlət qeydiyyatına alınıb



Bu günədək dövlət reyestrlərində




qeydiyyatdan keçirilmişdir

İndiyə qədər 81 dövlət informasiya ehtiyatı və 172 fərdi məlumatın informasiya sistemi reyestrlərdə dövlət qeydiyyatına alınıb.

Qeyd edək ki, reyestrlərin formalaşdırılmasına 2012-ci ilin dekabr ayında başlanılıb.

**Azərbaycan Respublikası Prezidentinin 5 fevral 2013-cü il tarixli 813 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elektron hökumət" portalı haqqında Əsasnamə"yə əsasən, dövlət informasiya ehtiyatlarının reyestri "Elektron hökumət" portalının texniki-texnoloji infrastrukturunun əsas komponentlərindən biri kimi müəyyən edilib. Dövlət informasiya ehtiyatlarının və fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrləri "Elektron hökumət" portalının operatoru olaraq, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzi (MHM) tərəfindən aparılır.**

Hər bir informasiya sistemi qeydiyyata alınarkən texniki qaydalara uyğun müvafiq elektron prosedurlar yerinə yetirilir və qeydiyyata alınacaq informasiya bazasına baxış təşkil olunur. Müvafiq prosedurlar tamamlandıqdan sonra dövlət orqanına mülkiyyətində olan informasiya sisteminin dövlət reyestrindən keçməsi barədə çıxarış verilir.

"Elektron hökumət" portalı üzərindən təqdim olunan elektron xidmətlərin təşkili üçün müxtəlif dövlət qurumunun mülkiyyətində olan informasiya bazalarından istifadə olunur. Bir elektron xidmətin formalaşmasında bəzən iki və daha artıq məlumat bazasından məlumatların götürülməsi tələb olunur və buna görə də hər bir məlumat bazasının təsdiq edilmiş tələblərə uyğunluğu çox önəmlidir.

MHM dövlət informasiya ehtiyatlarının və fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrlərinin fəaliyyətini təşkil edir, səlahiyyətləri daxilində bu sahə üzrə aidiyyəti funksiyaları həyata keçirir. "Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi haqqında Əsasnamə"nin 3.1.56-cı yarımbəndinin və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17 may 2010-cu il tarixli 89 nömrəli qərarı ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatlarının reyestrinin aparılması qaydaları haqqında Əsasnamə"nin 4.1-ci yarımbəndinin tələblərinə əsasən, mütəmadi olaraq "Elektron hökumət" portalının operatoru tərəfindən dövlət qurumlarının mülkiyyətində olan informasiya sistemlərinin monitorinqləri keçirilir. MHM-in mütəxəssisləri tərəfindən qurumların mülkiyyətində olan informasiya ehtiyatlarının və sistemlərinin müvafiq texniki qaydalara uyğun təşkili yoxlanılır. Monitorinqlər zamanı əsasən aşağıdakı məsələlərə diqqət yetirilir:

- *informasiya ehtiyatlarının Fərdi İdentifikasiya Nömrəsinə (FİN) uyğunluğu;*
- *fərdi məlumatların mühafizəsinin müəyyən olunmuş tələblərə uyğun təşkili;*
- *informasiya ehtiyatlarında məlumatlar bazasının strukturu ilə tanışlıq, bazalararası uyğunluq prinsiplərinin yoxlanılması;*
- *fərdi məlumatların toplanılmasının və işlənilməsinin mülkiyyətçi və ya operator tərəfindən bəyan edilmiş məqsədlərə uyğunluğu;*
- *digər əlaqəli informasiya sistemləri ilə informasiya mübadiləsi üsulları və kateqoriyalarının monitorinqi;*
- *informasiya sistemlərinin və ehtiyatlarının portala qoşulması və onların tələblərə uyğunluğunun yoxlanılması;*
- *informasiya sisteminin və ehtiyatlarının "Elektron hökumət" portalı ilə əlaqəli olan komponentlərinin tələblərə uyğunluğu;*
- *informasiya sisteminin SOAP (Simple Object Access Protocol) vasitəsilə sorğularla işləmə imkanı;*
- *dövlət orqanlarının informasiya sistemlərinin və ehtiyatlarının qarşılıqlı inteqrasiyasının təmin edilməsi məsələləri;*
- *dövlət orqanları tərəfindən təqdim olunan elektron xidmətlərin optimallaşdırılma imkanlarının araşdırılması;*
- *qanunvericiliyə uyğun sair aidiyyəti məsələlərin monitorinqi.*

Monitorinqlər başa çatdıqdan sonra nəticələr hesabat şəklində aidiyyəti qurumlara təqdim edilir, uyğunsuzluqların aradan qaldırılması üçün zəruri texniki dəstək təmin edilir.

# Avropada sosial xidmətlərin elektronlaşma səviyyəsi

## Avropa Birliyinin (AB) Elektron hökumət üzrə 2015-ci il hesabatı Avropada onlayn elektron xidmətlərin tam avtomatlaşdırıla biləcəyini göstərir

"Elektron hökumət" xidmətləri üzrə aparılan araşdırmalar göstərir ki, AB-də hələ də elektron formaları işləyərkən inzibati qurumların təmin edə biləcəyi informasiyaları istifadəçilər özləri ənənəvi şəkildə formaya daxil edirlər. Elektron sosial xidmətlərin 73%-i hələ də mobil əlavələr vasitəsilə insanlar üçün əlçatan deyil.

**"e-Government Benchmark" report** - "Elektron hökumət" İslahatları üzrə 12-ci Müqayisəli Təhlil Hesabatı 2012-2015-ci illərdə "Elektron hökumət" islahatları çərçivəsində icra olunan tədbirlər üzrə 3-cü buraxılışdır. Bu hesabatda dövlət internet səhifələri və xidmətlərinin vətəndaş istifadəsi prizmasından qiymətləndirməsi aparılır.

***Sözügedən təhlillər aşağıda göstərilən 7 sahəni əhatə edən xidmətlərlə bağlıdır:***

- *Məşğulluq;*
- *Təhsil;*
- *Biznes*
- *Yerdəyişmə;*
- *Maşın alışı;*
- *Kiçik iddia prosedurları;*
- *Müntəzəm biznes əməliyyatları.*

Bu sahələrin tam araşdırılması 2 il ərzində, yuxarıdan 3 sahənin 2012-2014-cü illərdə, digər 4-nün isə 2013-2015-ci illərdə yekunlaşması nəticələrin qarşılıqlı müqayisəsini mümkün edir.

***Hesabatın əsas nəticələri aşağıdakı kimidir:***

**İSTİFADƏÇİ YÖNÜMLÜLÜK**

50% sosial xidmətlər bütünlüklə onlayn istifadə edilir (yalnız elektron forma əldə olunur), 33% xidmətlər barədə yalnız informasiya əldə olunur, digər 17% xidmətlər onlayn əldə olunsa da, vahid portaldan təmin olunmur. Yuxarıdakı göstəricilər üzrə istifadəçi yönümlülük 73% (2013-2014) hesab edilir, bu göstərici 2012-2013-cü illərdə 70% olmaqla nisbətən aşağı olub.

**ŞƏFFAFLIQ**

Şəffaflıq göstəricisi hökumətin, dövlət qurumlarının öhdəlik və fəaliyyətlərinin, xidmət təmini prosesinin şəffaflığını yoxlayır. Hesabatda göstərilir ki, Avropa Birliyi veb səhifələrinin 51%-i mühüm şəffaflıq xüsusiyyətlərinə malikdir. Nisbətən aşağı göstərici 41% xidmət təminatı ilə bağlıdır. Administrativ xidmətlər barədə informasiyanın açıqlığı 60%, fərdi məlumatların əldə olunması isə 52% şəffafdır.

**AB XARİCİNDƏ XİDMƏT ÇEVİKLİYİ**

Rəqəmsal Vahid Bazarın reallaşdırılması istiqamətində mühüm komponentlərdən biri olan "Elektron hökumət" xidmətləri hələ də digər ölkələrə köçən vətəndaşlara adekvat yardım göstərməkdən uzaqdır. Avropa sərhədlərindən kənarda təmin edilən elektron xidmətlərin istifadəçi yönümlüyü biznes sahələri üçün 58%, vətəndaşlar üçün 43%-dir. Bu göstərici ötən il biznes sahəsi üçün 53%, vətəndaşlar üçün 38% olub.



**MÜHÜM VASİTƏLƏR**

***Bu göstəricilər sosial sahə üçün vacib olan 5 texniki elementi mümkün edir:***

- *Elektron identifikasiya;*
- *Elektron sənəd;*
- *Autentifikasiya mənbələri;*
- *Elektron Təhlükəsizlik;*
- *Sistemə vahid giriş.*

**İCTİMAİ XİDMƏTLƏRİN MOBİL QURĞULARA UYĞUNLUĞU**

Bu il ilk dəfə araşdırmalara dövlət qurumlarının veb səhifələrinin mobil qurğulara uyğunluğu daxil edilib. Biznes, məşğulluq və təhsil sahələri üzrə fəaliyyət göstərən veb səhifələrin təxminən 27%-i mobil qurğulara uyğun tərtib olunub. Avropa vətəndaşlarının mobil qurğular vasitəsilə internet üzərindən xidmətlərə müraciəti dövlət qurumları üçün adi praktikaya çevrilməlidir.

**ONLAYN XİDMƏTLƏRDƏN İSTİFADƏ**

Rəqəmsal cəmiyyətin inkişafı ilə bəzi üzv dövlətlər xidmət təminatında effektivliyi artırmaq məqsədilə onlayn xidmət kanallarını default standartı üzrə vətəndaşlarla əks-əlaqə kanallarına çevirərək "digital by default" (operator dəstəyi ilə) yanaşmasına keçir. Bu dövlətlər tədricən alternativ xidmət vasitələrini azaltmaqla yüksək keyfiyyətli elektron xidmətlər təmin edir.

***Avropa Şurası Rəqəmsal Vahid Bazar strategiyası çərçivəsində, "Elektron hökumət" üzrə yeni, 2016-2020-ci illər Fəaliyyət Planını təqdim edəcək. 2016-2020-ci illər Fəaliyyət Planına aşağıdakılar daxildir:***

- *2017-ci ilə qədər hüquqi şəxslər arasında ümumi qarşılıqlı əlaqə sisteminin yaradılması;*
- *2016-cı ildə üzv dövlətlərlə birlikdə "Once Only" (təkcə bir dəfə) prinsipi üzrə layihənin istifadəyə verilməsi;*
- *Vətəndaşlar və biznes sahələri üzrə istifadəçi yönümlü informasiya sisteminin yaradılması məqsədilə "Vahid Rəqəmsal Giriş"in təmini üçün Avropa və milli portalların genişləndirilməsi və inteqrasiyası.*
- *"Rəqəmsal Vahid Bazar" üzrə danışıqlarda proqnozlaşdırıldığı kimi, Avropa Şurası yeni "Elektron hökumət" 2016-2020-ci illər Fəaliyyət Planı ilə bağlı tərəfdaşların fikirlərinin öyrənilməsi üçün tezliklə ictimai müzakirəyə açıq olacaq. Qeyd edək ki, şuranın köhnə Fəaliyyət Planı 2011-2015-ci illəri əhatə edirdi.*

# Bu ilin 3 rübü ərzində “Elektron hökumət” portalında xidmətlərindən ən çox istifadə olunan sahələr




*Dünyada informasiya texnologiyalarının geniş tətbiq olunduğu bir zamanda ölkəmizdə də “Elektron hökumət”in və elektron xidmətlərin yaradılması və elektron sənəd mübadiləsinin tətbiqi ölkə üçün çox aktual və praktik mahiyyət daşıyır. Yeni e-xidmətlərin vətəndaşlara təqdim edilməsi cəmiyyətdə dövlət qurumunun nüfuzunu artırmaqla yanaşı, əhalinin tələbatı da günü-gündən artır. Bunu "Elektron hökumət" www.e-gov.az portalında təqdim olunan xidmətlərin və istifadəçilərin sayının artması sübut edir.*

Bu müddət ərzində "Elektron hökumət" portalı vasitəsi ilə ən çox müraciət olunan qurumların statistik göstəricilərini təqdim edirik.

***1.*** *Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi* ***4 570 597***
***2.*** *Tələbə Qəbulu üzrə Dövlət Komissiyası* ***4 245 812***
***3.*** *Rabitə və Yüksək Texnologiyalar Nazirliyi* ***4 047 190***
***4.*** *Elektron Arayışlar* ***327 453***
***5.*** *Daxili İşlər Nazirliyi* ***54 737***

ƏƏSMN sosial xidmətlərin elektronlaşdırılması və vətəndaşlara real elektron xidmət təqdim edilməsinə göstərdiyi xüsusi diqqətin nəticəsi olaraq mütəmadi liderlik edir. Qeyd edək ki, cari il yanvarın 1-dən oktyabr ayının 1-dək **1,408,190** dəfə istifadə edilən "Əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması və bu barədə işə götürənə məlumatın verilməsi" xidməti qurumun ən çox istifadə olunan xidmətidir. Bu müddət ərzində qurumun ikinci ən çox istifadə olunan elektron xidməti isə "Ünvanlı sosial yardımla bağlı müraciətin edilməsi” xidmətidir ki, bu xidmətdən 9 ay ərzində **1,203,524** dəfə istifadə edilib. Onu da qeyd edək ki, bu xidmət cari ilin fevral ayının 22-də elektronlaşdırılaraq portala inteqrasiya edilib.

Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının 9 ay ərzində ən çox istifadə olunan "Namizədlərə, sınaq imtahanı iştirakçılarına imtahan nəticələri haqqında məlumatların internet və ya qısa mesaj (SMS) vasitəsilə verilməsi” xidmətindən **1,814,016** dəfə istifadə edilib.

Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin təqdim etdiyi elektron xidmətlərdən "Mobil nömrə daşınması xidməti vasitəsilə digər şəbəkəyə daşınmış nömrələr barədə məlumatın verilməsi” xidmətinə **2,024,616** dəfə müraciət olunub. Qeyd edək ki, Mobil Nömrə Daşınması (MND) xidməti abunəçilərə mobil nömrələrini dəyişmədən istənilən digər mobil operator şəbəkəsinə qoşulmaq imkanı verir. Yəni abonentlər öz mobil nömrəsinin prefiksini dəyişmədən operatorunu dəyişə bilir. Bu xidmətdən istifadə etməklə isə istifadəçi zəng edəcəyi nömrənin hansı şəbəkəyə daşınması ilə bağlı məlumat əldə edə bilir.

“Elektron hökumət” portalında sosial tələbatın yüksək olduğu elektron arayışların istifadə sayı kifayət qədər böyükdür və hər ötən gün bu rəqəm artır. 9 ay ərzində “İş yerinə dair arayış”a **160,644** dəfə, “Vətəndaşa aid fərdi məlumatlar üzrə arayış”a **50,080** dəfə müraciət edilib. Bu da elektron arayışların çeşidinin artırılması və tətbiq sahələrinin genişləndirilməsi üçün lazımi tədbirlərin görülməsinə zəmin yaradır.

Daxili İşlər Nazirliyinin təqdim etdiyi "Yol hərəkəti qaydalarının pozuntusu ilə əlaqədar tətbiq edilən cərimələr və cərimə balları barədə məlumatlar” adlı xidmətinə isə 9 ay ərzində **27,473** dəfə müraciət edilib. Bu xidmət qeydiyyatsız olduğundan xidmətdən istifadə etmək üçün portala giriş etməyə ehtiyac yoxdur. Qeyd edək ki, qurumun "FİN-ə görə fərdi məlumatların axtarış sistemi” xidməti də sosial əhəmiyyəti böyük olan xidmətlərdəndir.

## 2016-cı ilin 3 rübü ərzində bütün qurumlar üzrə “Elektron hökumət” portalı tərəfindən təqdim olunan elektron xidmətlərdən istifadə barədə statistik məlumat:

| № | Xidmət təchizatçısının adı | Elektron xidmətlər | Xidmətlərə müraciət sayı |
|---|---|---|---|
| 1 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 25 | 4570597 |
| 2 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası | 15 | 4245812 |
| 3 | Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 34 | 4047190 |
| 4 | Dövlət Gömrük Komitəsi | 12 | 316085 |
| 5 | Elektron Arayışlar | 7 | 143444 |
| 6 | Daxili İşlər Nazirliyi | 3 | 54737 |
| 7 | Əmlak Məsələləri Dövlət Komitəsi | 24 | 45431 |
| 8 | Azərsu ASC | 6 | 28184 |
| 9 | Mərkəzi Seçki Komissiyası | 7 | 17896 |
| 10 | Təhsil Nazirliyi | 6 | 17894 |
| 11 | Ədliyyə Nazirliyi | 17 | 9743 |
| 12 | Azərişıq ASC | 1 | 8736 |
| 13 | Dövlət Miqrasiya Xidməti | 11 | 7435 |
| 14 | Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti | 5 | 7017 |
| 15 | Səhiyyə Nazirliyi | 6 | 6141 |
| 16 | Vergilər Nazirliyi | 58 | 5632 |
| 17 | Mədəniyyət və Turizm Nazirliyi | 13 | 3821 |
| 18 | Dövlət Statistika Komitəsi | 5 | 2877 |
| 19 | Digər xidmətlər | 1 | 2766 |
| 20 | Prezident yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 4 | 2766 |
| 21 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 12 | 2056 |
| 22 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 4 | 1631 |
| 23 | AzərEnerji ASC | 1 | 1325 |
| 24 | İqtisadiyyat Nazirliyi | 8 | 1320 |
| 25 | Kənd Təsərrüfatı Nazirliyi | 19 | 1137 |
| 26 | Dövlət Sərhəd Xidməti | 2 | 965 |
| 27 | İnsan Hüquqları üzrə Müvəkkil - Ombudsman | 1 | 879 |
| 28 | Milli Arxiv İdarəsi | 2 | 845 |
| 29 | Fövqəladə Hallar Nazirliyi | 3 | 841 |
| 30 | Dövlət Dəniz Administrasiyası | 17 | 840 |
| 31 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 16 | 813 |
| 32 | Baş Prokurorluq | 1 | 728 |
| 33 | Gənclər və İdman Nazirliyi | 4 | 715 |
| 34 | Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 2 | 700 |
| 35 | Nəqliyyat Nazirliyi | 4 | 632 |
| 36 | Xarici İşlər Nazirliyi | 1 | 619 |
| 37 | Diasporla İş üzrə Dövlət Komitəsi | 1 | 582 |
| 38 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 1 | 414 |
| 39 | Müəllif Hüquqları Agentliyi | 5 | 391 |
| 40 | Energetika Nazirliyi | 5 | 271 |
| 41 | Müdafiə Sənayesi Nazirliyi | 1 | 206 |
| 42 | Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti | 2 | 143 |
| | **CƏMİ** | **372** | **13562257** |

ELEKTRON
HÖKUMƏT
PORTALI



Vaxta qənaət

Əlverişlilik

Şəffaflıq

Rahatlıq

Çağrı mərkəzi 157

www.e-gov.az

## 01.01.2016 – 30.09.2016-cı il dövrü ərzində "Elektron hökumət" portalı vasitəsilə ən çox istifadə olunan e-xidmətlərin siyahısı:

| № | Xidmətin adı | Təchizatçının adı | Say |
|---|---|---|---|
| 1 | Mobil nömrə daşınması xidməti vasitəsilə digər şəbəkəyə daşınmış nömrələr barədə məlumatın verilməsi | RYTN | 2024616 |
| 2 | Namizədlərə, sınaq imtahanı iştirakçılarına imtahan nəticələri haqqında məlumatların internet və ya qısa mesaj (SMS) vasitəsilə verilməsi | TQDK | 1814016 |
| 3 | Əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması və bu barədə işəgötürənə məlumatın verilməsi | ƏƏSMN | 1408190 |
| 4 | Ünvanlı sosial yardımla bağlı müraciətin edilməsi | ƏƏSMN | 1203524 |
| 5 | Namizədlərin (abituriyentlərin, bakalavrların, namizədlərin (rezidenturaya sənəd verənlər) ərizələrinin onlayn qəbulu | TQDK | 952643 |
| 6 | Namizədlərə imtahana buraxılış vərəqələrinin internet vasitəsilə verilməsi | TQDK | 706176 |
| 7 | Telefon nömrəsi üzrə axtarış | RYTN | 623656 |
| 8 | Mobil cihazların IMEI kodunun yoxlanılması | RYTN | 529889 |
| 9 | Mobil cihazların qeydiyyatdan keçirilməsi | RYTN | 479120 |
| 10 | Namizədlərin elektron ixtisas seçimi ərizələrinin onlayn qəbulu | TQDK | 430048 |
| 11 | Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi | ƏƏSMN | 381825 |
| 12 | Uşağın üç yaş tamam olanadək ona qulluq etməyə görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi | ƏƏSMN | 266991 |
| 13 | Malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi üzrə elektron gömrük bəyannaməsinin qəbulu | Dövlət Gömrük Komitəsi | 235515 |
| 14 | Hamiləliyə və doğuma görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi | ƏƏSMN | 221276 |
| 15 | Sınaq imtahanına yazılış | TQDK | 200423 |
| 16 | Uşağın anadan olmasına görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi | ƏƏSMN | 181422 |
| 17 | AzDataCom internet xidmətinə qoşulma üçün sifariş | RYTN | 180013 |
| 18 | İş yerinə dair arayış | ƏƏSMN | 160644 |
| 19 | Rabitə və kommunal xidmət haqlarının internet vasitəsilə ödənilməsi | RYTN | 144954 |
| 20 | Əmək müqaviləsi bildirişləri barədə məlumatların işçilər tərəfindən əldə edilməsi | ƏƏSMN | 139749 |

## 01.10.2016-cı il tarixə Dövlət İnformasiya Ehtiyatlarının və Fərdi Məlumatların İnformasiya Sistemlərinin Dövlət Reyestrlərinə daxil edilmiş məlumatlar barədə

*Bütün qurumlar üzrə*

| Dövlət İnformasiya Ehtiyatları | Fərdi Məlumatların İnformasiya Sistemləri | Cəmi |
|---|---|---|
| 81 | 172 | 253 |

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 181-4-cü maddəsinə əsasən, fərdi məlumatlar haqqında qanunvericiliklə dövlət qeydiyyatı tələb olunan, lakin dövlət qeydiyyatından keçməyən informasiya sistemində fərdi məlumatların toplanılmasına və ya işlənilməsinə görə 300 manatdan 500 manatadək cərimə tətbiq edilir.

## 01.10.2016-cı il tarixədək təqdim olunmuş elektron imza sertifikatları barədə statistik məlumat

| Dövlət qurumlarına verilmiş sertifikatlar | Hüquqi şəxslərə verilmiş sertifikatlar | Vətəndaşlara verilmiş sertifikatlar | **Cəmi** |
|---|---|---|---|
| 64008 | 16526 | 16590 | **97124** |


Elektron məkanda
Sizin imzanız
Avtomatlaşdırılmış
Rejimdə Sənədlərin
İmzalanması Sistemi
Müasir
Çevik
Etibarlı
Çağrı mərkəzi 157
imza
www.e-imza.az

# 2016-cı ilin 9 ayı ərzində "Elektron hökumət" portalına müraciətlərin sayı 13 milyondan çox oldu




Google analytics-ə istinadən "Elektron hökumət" portalının statistikasına nəzər salsaq görərik ki, 2016-cı ilin 9 ayı ərzində ümumilikdə 1,557,425 nəfər 6,577,329 dəfə portala daxil olaraq 21,358,109 dəfə müxtəlif səhifələrə keçid ediblər. Həmin şəxslər 13,562,257 dəfə elektron xidmətlərə müraciət ediblər və portala sərf etdikləri vaxt ortalama 5 dəqiqə 9 saniyə təşkil edib.

Ümumiyyətlə, vətəndaşlarımızın portala marağının artması müşahidə olunmaqla yanaşı, təkrarən portala müraciət edənlərin də kütlə nisbəti artmaqdadır. Bu dövr ərzində portala müraciət edənlərin 22,8%-ni yeni istifadəçilər, 77,2 %-ni isə təkrar müraciət edənlər təşkil edib.

Onu da qeyd edək ki, portala daxil olmaq üçün sadələşdirilmiş kod-parol alan istifadəçilərin sayı 461 mini keçib. Azərbaycan Respublikasında yaşayan və şəxsiyyət vəsiqəsinə sahib olan istənilən şəxs heç bir dövlət lüzumu ödəmədən kod-parol əldə edə bilər.

© 2016 Məlumat Hesablama Mərkəzi
Ünvan: Bakı şəhəri, Nəsimi r-nu, Dilarə Əliyeva küç., 185
Tel.: 157; Email: office@rabita.az